# ZƏFƏRİN mübarək, VƏTƏN!




Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

ŞƏRQ QAPISI

Sayı: 43 (24.529)

7 noyabr 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Zəfərə aparan yol: milli iradə, güclü dövlət və qətiyyətli liderlik



Tarix xalqların taleyinə elə sınaqlar yazır ki, onların nəticələri təkcə bir nəslin deyil, əsrlər boyu yaşayan bütün nəsillərin yaddaşında qalır. Bəzən bir xalqın haqqı onilliklər, hətta yüzilliklər ərzində əlindən alınır, tarixi torpaqları üzərində yad iddialar irəli sürülür, milli iradəsinin müxtəlif siyasi və hərbi vasitələrlə qırılmasına çalışılır. Ancaq tarix həm də sübut edir ki, heç bir ədalətsizlik əbədi deyil, milli iradə və dövlətçilik əzmi qarşısında süni maneələr sonsuzadək davam gətirə bilməz. Azərbaycan xalqının 2020-ci ildə qazandığı tarixi Zəfər məhz bu həqiqətin müasir tariximizdəki ən parlaq təzahürüdür. Bu, təkcə 44 günlük müharibənin nəticəsi deyil, uzun illər ərzində formalaşan dövlətçilik strategiyasının, güclənən iqtisadiyyatın, müasir ordu quruculuğunun, milli birliyin və tarixi torpaqlarımıza qayıdış əzminin məntiqi yekunudur. Azərbaycan xalqı, təxminən, iki əsr ərzində müxtəlif xarici siyasi dairələrin ideoloji, mənəvi və hərbi təhdidləri ilə üzləşmiş, tarixi torpaqlarına qarşı əsassız iddiaların və ərazi itkilərinin ağır nəticələrini yaşamışdır. "Böyük Ermənistan" ideyası ətrafında formalaşdırılan iddialar, regionda həyata keçirilən məqsədyönlü siyasət və daxili siyasi böhranlar xalqımızın taleyində dərin izlər buraxmışdır. Lakin 1990-cı illərin əvvəllərində ölkəni uçuruma sürükləyən proseslərin qarşısının alınması, dövlətçiliyin qorunması və inkişaf strategiyasının müəyyənləşdirilməsi istiqamətində tarixi dönüş baş verdi. Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliyi və qətiyyəti sayəsində ölkəmizdə siyasətin əsas istiqaməti milli maraqların qorunmasına, dövlətçiliyin möhkəmləndirilməsinə, respublikanın hərtərəfli inkişafına və ərazi bütövlüyümüzün bərpasına yönəldi. Azərbaycançılıq ideologiyası əsasında gənc nəslin vətənpərvərlik ruhunda yetişdirilməsi, nəhəng iqtisadi layihələr vasitəsilə Azərbaycanın beynəlxalq nəqliyyat və ticarət marşrutlarına qoşulması, iqtisadi potensialın gücləndirilməsi, paralel olaraq həyata keçirilən ordu quruculuğu tədbirləri ölkəmizin müstəqilliyini daha da möhkəmləndirdi, Azərbaycanı regionun nüfuzlu dövlətinə çevirdi. Ulu Öndər yolunun ən böyük təntənəsi isə məhz 2020-ci ilin 44 günündə yaşandı. Sentyabrın 27-də başlayan əks-hücum əməliyyatları noyabrın 8-də Şuşanın azad edilməsi ilə tarixi Zəfərlə taclandırıldı. Noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatla Ermənistan hərbi məğlubiyyətin nəticələrini qəbul etməyə və işğal altında saxladığı digər əraziləri boşaltmağa məcbur oldu. Beləliklə, Azərbaycan 30 ilə yaxın müddətdə kağız üzərində qalan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını öz gücü və siyasi iradəsi hesabına təmin etdi. Müzəffər Ali Baş Komandan qüdrətli Ordumuzla birlikdə tarixi ədalətin bərpasına nail oldu, Ulu Öndərin ən böyük arzularından birini gerçəkləşdirdi, torpaqlarımızı işğaldan azad etdi. Dövlət başçısının 2020-ci il noyabrın 8-də Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciətində dediyi kimi: ***"Mən bu gün, eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!"***

Səhifə ➡ 2

# Zəfərə aparan yol:



# milli iradə, güclü dövlət və qətiyyətli liderlik

*(əvvəli 1-ci səhifədə)*

Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə tarixi Zəfərimiz hüquqi cəhətdən də əbədiləşdirildi. Şuşa şəhərinin işğaldan azad edilməsinin Qələbəmizdəki müstəsna rolu nəzərə alınaraq noyabrın 8-i Zəfər Günü elan edildi. 2021-ci il yanvarın 14-də isə qalib Ordunun Müzəffər Ali Baş Komandanı Şuşa şəhərində üçrəngli bayrağımızı əbədi yüksəkliyə ucaltdı...

Tarixə qızıl hərflərlə yazılan 2020-ci ilin 44 gününə aparan yolun hər mərhələsi, Böyük Qələbəni şərtləndirən amillərin hər biri özlüyündə mühüm əhəmiyyət daşıyır. Ən həlledici amillərdən biri, şübhəsiz ki, dövlət başçısının rəhbərliyi ilə güclü və nizami hərbi birləşmələrin formalaşdırılması istiqamətində həyata keçirilən ordu quruculuğu siyasətidir. Bu xüsusda müdafiə sənayesinin inkişafı, ordunun ən yeni texnika və texnologiyalarla təchiz edilməsi ilə yanaşı, milli kadr potensialının artırılması, hərbi qulluqçuların peşəkarlığının və döyüş hazırlığının yüksəldilməsi də əsas prioritetlərdən olub. Çünki Qalib Liderin də vurğuladığı kimi, nə qədər güclü texnika və texnologiya olsa da, bayrağı yüksəldən, onu azad edilmiş torpaqlarda dalğalandıran əsgər və zabitdir. Vətən uğrunda sinəsini sipər edən, torpaq uğrunda canından keçən məhz Azərbaycan əsgəridir.

Bu mənada, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi, dövlətin milli ideologiya və Azərbaycançılıq siyasətinin mühüm istiqamətlərindən biri kimi, 44 günlük müharibədə özünü ən bariz şəkildə göstərdi. Misilsiz Qələbədə XXI əsrin gənclərinin rolu həlledici oldu. Prezident İlham Əliyev çıxışlarının birində bu məqama xüsusi toxunaraq deyib: ***"Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər".***

Bəli, vətənpərvərlik ruhunda yetişən qətiyyətli Azərbaycan əsgər və zabiti 44 gün ərzində bir addım belə geri çəkilmədi. Cəbhəboyu ərazilərdə "Ancaq irəli!" çağırışı ilə döyüşən qəhrəmanlarımız düşmənin keçilməz hesab etdiyi müdafiə sədlərini yarıb keçdilər, dağları aşdılar, sıldırım qayalara dırmaşaraq Şuşa qalasına yüksəldilər, yaxın məsafəli döyüşlərdə misilsiz şücaət göstərərək tariximizin unudulmaz qəhrəmanlıq salnaməsini yazdılar. Bu qəhrəmanlıq salnaməsində ölkəmizin bütün bölgələrinin, o cümlədən Naxçıvanın mərd oğullarının da əvəzsiz və danılmaz payı vardır.

Böyük Qələbəni yaxınlaşdıran ən vacib amillərdən biri də "dəmir yumruq" ətrafında sıx birləşən xalqımızın həmrəyliyi və birliyi oldu. Sentyabrın 27-dən etibarən peşəsindən, mövqeyindən asılı olmayaraq hər bir azərbaycanlının ürəyi cəbhə ilə döyünür, hamı məğrur əsgərlərimizin qələbəsi naminə əlindən gələni əsirgəmirdi. Müzəffər Ali Baş Komandan bir tərəfdən cəbhədə gedən döyüşləri koordinasiya edir, xalqımıza zəfər müjdələri verir, digər tərəfdən xarici jurnalistlərin suallarını ətraflı cavablandırır, xüsusilə də apardığımız ədalətli müharibəyə qərəzli yanaşan media nümayəndələrinin və siyasi dairələrin iddialarına tutarlı cavablar verirdi. 44 gün ərzində Prezident İlham Əliyevin 11 ölkənin 26 media qurumuna verdiyi müsahibələrdə beynəlxalq hüququn prinsipləri, tarixi həqiqətlər və yeni siyasi reallıqlar geniş şəkildə diqqətə çatdırıldı.

Vətən müharibəsi ilə Azərbaycan təkcə Ermənistanın hərbi təcavüzünə qarşı mübarizə aparmır, eyni zamanda ölkəmizə yönələn siyasi, iqtisadi və informasiya təzyiqləri ilə də üz-üzə qalırdı. Lakin bütün bu çətinliklər qarşısında xalqımızın nümayiş etdirdiyi birlik və əzm qələbəyə inamı daha da gücləndirirdi. Övladları Vətən uğrunda şəhid olan anaların dilindən səslənən "Bir ana olaraq mənim üçün çox çətindir. Evimin tək oğlu idi. Vətən sağ olsun, oğlum Vətən yolunda şəhid oldu", "Az, amma qürurlu və mərd yaşadı. 10 oğlum olsa, onunu da Vətənə qurban verərdim. Təki, Vətən sağ olsun" kimi ifadələr xalqımızın mübarizə əzminin, Vətənə bağlılığının və sarsılmaz iradəsinin ən təsirli nümunələrindəndir. Bu sözlər bir daha sübut edirdi ki, Azərbaycan xalqı üçün Vətən torpağı hər şeydən üstündür.

Vətən müharibəsində qazanılan tarixi Zəfərin böyüklüyü həm də ondadır ki, bu Qələbə nəticəsində Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğaldan azad edilməsi siyasi yolla təmin olundu. Dövlət başçısının siyasi iradəsi ilə 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanat atəşkəsin təmin olunmasına, eləcə də həmin ərazilərin mərhələli şəkildə Azərbaycana qaytarılmasına hüquqi-siyasi zəmin yaratdı. 2023-cü il sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycan öz suverenliyini bütün ərazisində tam bərpa etdi. Beləliklə, ölkəmiz beynəlxalq hüquqla tanınan ərazi bütövlüyünü və suverenliyini təmin etmək əzmini bir daha nümayiş etdirdi.

Zəfərin beşinci ildönümü ərəfəsində – 2025-ci il avqustun 8-də Vaşinqtonda əldə olunan razılaşmalarla Azərbaycan hərbi meydanda qazandığı tarixi Qələbəni diplomatik müstəvidə də möhkəmləndirmək istiqamətində mühüm addım atdı. Prezident İlham Əliyev bir daha nümayiş etdirdi ki, qətiyyətli siyasətlə qazanılan Zəfər yalnız ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası ilə məhdudlaşmır, həm də regionun gələcək siyasi mənzərəsinin formalaşmasına təsir göstərir. Bu gün Cənubi Qafqazda ədalətli və davamlı sülhün, qarşılıqlı əməkdaşlığın əsaslarının yaradılması da həmin tarixi Qələbənin formalaşdırdığı yeni reallıqların məntiqi davamıdır. Dövlət başçısının bu il oktyabrın 2-də Yeni Azərbaycan Partiyasının VIII Qurultayında səsləndirdiyi fikirlər də bu reallıqların mahiyyətini və tarixi əhəmiyyətini aydın ifadə edir: ***"Azərbaycan özü təkbaşına həm işğala son qoymuşdur, eyni zamanda bölgədə yeni reallıqlar yaratmışdır. O vaxtdan – İkinci Qarabağ müharibəsindəki Zəfərimizdən bu günə qədər bu reallıqlar bütün dünya tərəfindən qəbul edilir".***

Vaşinqtonda imzalanan Birgə Bəyannamə və sülh sazişinin mətninin paraflanması regionda uzunmüddətli sülhün təmin olunması, nəqliyyat-kommunikasiya əlaqələrinin inkişafı və iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar yaradıb. Azərbaycanın əsas məqsədi isə əldə etdiyi tarixi nailiyyətləri qorumaqla regionda təhlükəsiz, sabit və əməkdaşlığa əsaslanan mühitin formalaşmasına nail olmaqdır. Müharibə meydanında öz gücünü nümayiş etdirən ölkəmiz indi də regional nəqliyyat, logistika, enerji və iqtisadi əməkdaşlıq layihələri vasitəsilə yeni inkişaf perspektivləri yaradır.

Bu kontekstdə Naxçıvanın geosiyasi əhəmiyyəti də xüsusi qeyd olunmalıdır. Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsi, Zəngəzur dəhlizi çərçivəsində nəqliyyat-kommunikasiya imkanlarının genişlənməsi diyarın uzun illər üzləşdiyi blokada məhdudiyyətlərinin aradan qaldırılması üçün mühüm perspektivlər açır. Bu, təkcə Naxçıvanın deyil, bütövlükdə, Azərbaycanın beynəlxalq nəqliyyat və logistika imkanlarının genişlənməsi deməkdir.

Misilsiz Qələbədən ötən dövrdə Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərdə Böyük Qayıdış siyasətini uğurla həyata keçirir. Qarabağ və Şərqi Zəngəzurun hər qarışına həyat qayıdır, soydaşlarımız doğma yurdlarına dönür, yeni yaşayış məntəqələri salınır, təhsil, səhiyyə və mədəniyyət müəssisələri fəaliyyətə başlayır, tarixi abidələrimiz bərpa olunur. Zəngilanda, Füzulidə, Laçında, Şuşada, Xocalıda və Xankəndidə dalğalanan üçrəngli bayrağımız müstəqilliyimizin, ərazi bütövlüyümüzün və suverenliyimizin rəmzi kimi xalqımızın qürur mənbəyinə çevrilib. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar da bu tarixi Qələbəni böyük fəxarət hissi ilə qeyd edir, onu xalqımızın birliyinin, dövlətimizin qüdrətinin və şəhidlərimizin qəhrəmanlığının təntənəsi kimi dəyərləndirirlər. Zəfərin nişanələri bu gün həyatımızın hər sahəsində görünür, xalqımıza çalışmaq, yaratmaq və daha böyük hədəflərə doğru inamla irəliləmək əzmi aşılayır.

Tarixi Zəfərin əsas qaynağı xalqımızın torpağa bağlılığı, müstəqilliyə sədaqəti və milli iradəsidir. Təxminən, ikiəsrlik tarixi ədalətsizlikdən doğan ağrıların, 30 illik işğalın, didərginlik və həsrətin ardından Azərbaycan xalqı öz tarixinin yeni, möhtəşəm səhifəsini yazdı. Bu səhifədə Müzəffər Ali Baş Komandanın qətiyyətli rəhbərliyi, şəhidlərimizin və qazilərimizin qəhrəmanlığı, dövlətimizin gücü, xalqımızın birliyi və azad edilmiş torpaqlarımızın dirçəlişi əks olunur. Zəfər Günü məhz buna görə bizim üçün yalnız təqvimdə qeyd olunan bayram deyil, milli yaddaşın, tarixi məsuliyyətin və gələcəyə inamın rəmzidir. Zəfərimiz tariximizin qürur səhifəsi, şəhidlərimizin əbədi xatirəsi, gələcək nəsillərə ən böyük mirasımızdır.

*Qələbən əbədi, Zəfərin mübarək olsun, Azərbaycan!*

**Nail ƏSGƏROV**

# Birinci vitse-prezident Mehriban Əliyeva "Zikra: xatirələr gecəsi" tamaşasını izləyib

Noyabrın 1-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Bakı Beynəlxalq İncəsənət Festivalı (BIAF-2026) çərçivəsində "Zikra: xatirələr gecəsi" tamaşası nümayiş olunub.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və ailə üzvləri tamaşaya baxıblar.

Səudiyyə Ərəbistanının Əl-Ula şəhərində yerləşən və müasir incəsənətə həsr olunmuş beynəlxalq mədəniyyət məkanı "Wadi AlFann"ın sifarişi ilə hazırlanan "Zikra: xatirələr gecəsi" tamaşası çoxsaylı mükafatlara layiq görülmüş rejissor və xoreoqraf Əkrəm Xanın ən son yaradıcılıq işidir.

Müasir rəqs və klassik hind rəqsinin özünəməxsus hərəkət dilini bir araya gətirən Əkrəm Xan bu layihədə vizual rejissor Mənal Əl-Dovayan ilə əməkdaşlıq edib.

Tamaşada qadınlar bir gecəlik bir araya gələrək özlərindən əvvəl yaşamış insanların ruhlarını oyatmağa çalışırlar. Müqəddəs mərasim və ortaq xatirələrin yada salınması vasitəsilə onlar zamanın sərhədlərini aşaraq keçmişlə bu günü birləşdirir, mənəvi yenilənmə aktını gerçəkləşdirirlər.

Tamaşanın orijinal musiqisi hindəsilli amerikalı müğənni və bəstəkar Aditya Prakaş tərəfindən bəstələnib.

Tamaşanın vizual dünyası "Wadi Al-Fann"ın rəssamı Mənal Əl-Dovayan tərəfindən yaradılıb. O, 60-cı Venesiya Biennalesində Səudiyyə Ərəbistanı pavilyonunda nümayiş etdirilən irimiqyaslı multimedia instalyasiyası ilə tanınır.

"Zikra" layihəsində rəssam ənənəvi sənətkarlıq nümunələrini müasir formalarla birləşdirib. Təbii boyalar səhranın rəng çalarlarını əks etdirir, Əl-Ulanın irsindən qaynaqlanan həndəsi naxışlar isə hər bir obrazın rolunu və simvolik mənasını vurğulayır.



Qeyd edək ki, səhnə əsəri Əl-Ulanın qədim miflərindən və möhtəşəm təbiət mənzərələrindən ilhamlanaraq hazırlanıb. Tamaşanın məkan üçün xüsusi olaraq yaradılmış dünya premyerası 2025-ci ilin yanvarında nümayiş etdirilib.

# Birinci vitse-prezident Mehriban Əliyeva və ailə üzvləri dünyaşöhrətli skripkaçı Devid Qarrettin simfonik şousunu izləyiblər



Noyabrın 4-də Heydər Əliyev Mərkəzində dünyaşöhrətli skripkaçı Devid Qarrett "Millennium Symphony - Crossover Programme" simfonik şousu ilə çıxış edib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və ailə üzvləri simfonik şounu izləyiblər.

Devid Qarrett klassik musiqi ilə rok, pop və kino melodiyalarını birləşdirdiyi unikal proqramında Bethovenin, Hans Zimmerin, Maykl Ceksonun, "Nirvana" və "Rammstein" qruplarının, həmçinin digər sənətçilərin əsərlərini və musiqi hitlərini özünəməxsus tərzdə təqdim edib.



Qeyd edək ki, D.Qarrett səhnədə debütünü 10 yaşında edib. O, 13 yaşında nüfuzlu "Deutsche Grammophon" ilə müqavilə bağlayan ən gənc sənətçi olub. Təhsilini bitirdikdən indiyədək Devid Qarrett Zubin Mehta, Kristof Eşenbah, Rikkardo Şayi və Andres Orosko-Estrada kimi dirijorlarla çalışır.

Sənətçinin yaradıcılığında xüsusi yer tutan klassik "ICONIC" albomu Almaniyanın pop musiqi hit-paradında dördüncü pilləyə yüksələrək, klassik musiqi üçün müstəsna nailiyyətə imza atıb. Albom, eyni zamanda, "Golden Record" və "İlin bestselleri" nominasiyalarında "Opus-Klassik 2023" mükafatlarına layiq görülüb. Devid Qarrett bu klassik repertuarla beynəlxalq turneyə çıxaraq 5 qitədə 113 konsert verib.

# NDU-da Doktorantların və gənc tədqiqatçıların Respublika Elmi Konfransı (NASCO29) keçirilib



Naxçıvan Dövlət Universitetinin ev sahibliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə "Şəhərsalma və Memarlıq İli"nə həsr olunmuş Doktorantların və gənc tədqiqatçıların Respublika Elmi Konfransının (NASCO29) açılış mərasimi keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucalan abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını ifadə ediblər. Sonra qonaqlar Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Ardınca NDU İncəsənət fakültəsinin dekanı Cavid İsmayılovun konfransda iştirak edən universitet rektorlarının portretlərindən ibarət sərgisinə baxış keçirilib.

Heydər Əliyev Sarayında baş tutan açılış mərasimində öncə Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa edilib.

Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini İdris İsayev çıxışında konfransın gənc tədqiqatçılar üçün elmi yeniliklərin müzakirəsi, yeni elmi əlaqələrin qurulması baxımından əhəmiyyətini vurğulayıb. İdris İsayev Prezident İlham Əliyev tərəfindən elm, təhsil və innovasiyanın ölkəmizdə inkişafın əsas istiqamətlərindən biri kimi müəyyənləşdirildiyini bildirib. Rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılmasının, elmin iqtisadiyyat və sənaye ilə əlaqələndirilməsinin vacibliyi qeyd edilib. Elmi forumun Azərbaycanın qədim və zəngin elmi-mədəni ənənələrə malik Naxçıvan diyarında keçirilməsinin xüsusi əhəmiyyət daşıdığını vurğulayan nazir müavini muxtar respublikanın ölkəmizin intellektual və elmi potensialının formalaşmasında mühüm rol oynadığını diqqətə çatdırıb. Natiq doktorantura təhsilinin müasir tələblərə uyğun yenilənməsinə də toxunub. Tədqiqat mövzularının aktuallığı, yeni elmi metodların tətbiqi, akademik yazı üslubu və digər müasir elmi bacarıqların inkişaf etdirilməsinin əhəmiyyətini qeyd edib. Konfransda təqdim olunan elmi yeniliklərin Azərbaycan elminin inkişafına müsbət təsir göstərəcəyinə əminliyini ifadə edib.



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov konfransda çıxış edib. Səlahiyyətli nümayəndə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətində elmin inkişafının xüsusi yer tutduğunu bildirib, ölkəmizin sosial-iqtisadi inkişafında və rifahın təmin olunmasında elmin mühüm rolunu qeyd edib. Regionda formalaşan yeni reallıqların və çağırışların elmi ictimaiyyət, xüsusilə doktorantlar və gənc tədqiqatçılar qarşısında yeni vəzifələr irəli sürdüyünü diqqətə çatdıran Ceyhun Cəlilov bildirib ki, Prezident İlham Əliyev tərəfindən nəqliyyat-logistika və "yaşıl enerji" resurslarının formalaşdırılması, aqrar sahənin inkişafı, tarixi-mədəni irsin bərpası və qorunması Naxçıvanın gələcək inkişafı üçün strateji istiqamətlər kimi müəyyən edilib. Bu hədəflərə nail olunmasında elmi tədqiqatların, innovativ yanaşmaların və müasir texnoloji həllərin mühüm əhəmiyyət daşıdığını vurğulayan səlahiyyətli nümayəndə doktorantların və gənc tədqiqatçıların bu proseslərdə fəal iştirakının vacibliyini qeyd edib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək universitetin NASCO29-a ev sahibliyi etməsindən məmnunluğunu ifadə edib, konfransın ölkədə elmi potensialın bir araya gətirildiyi ən geniş platformalardan biri olduğunu bildirib. Tədbirin elmtutumlu iqtisadiyyatın inkişafına və ölkə rəhbərliyinin bu istiqamətdə həyata keçirdiyi siyasətə töhfə verdiyini diqqətə çatdırıb. NASCO 29-un indiyədək ölkə üzrə keçirilmiş ən genişmiqyaslı elmi konfrans olduğunu vurğulayan rektor konfransın ümumi iştirakçı sayının dinləyicilərlə birlikdə 5000 nəfəri ötəcəyini qeyd edib. Bildirilib ki, konfransa 123 elm və təhsil müəssisəsindən 1627 elmi iş təqdim olunub, elmi və texniki komitələrin qiymətləndirməsindən sonra 1382 doktorant, dissertant və gənc tədqiqatçı tərəfindən yazılmış 1028 elmi iş qəbul edilib. Elbrus İsayev konfransın elmi keyfiyyət göstəricilərindən də bəhs edərək təqdim olunan işlərin beynəlxalq standartlara uyğunluğunun, elmi komitənin qiymətləndirməsinin və BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədi ilə əlaqələndirilməsinin əhəmiyyətini vurğulayıb. Rektor Naxçıvan Dövlət Universitetinin elmi fəaliyyətindən də danışaraq universitetin Scopus göstəriciləri üzrə ölkədə ilk beşlikdə yer aldığını, tələbələr arasında elmi fəaliyyətə marağın artırılması istiqamətində görülən işləri diqqətə çatdırıb.



Naxçıvan Dövlət Universitetinin Memarlıq ixtisası üzrə doktorantı Məhəmməd Bayramov öz çıxışında konfransın təşkilinə görə təşəkkürünü bildirib, Naxçıvanın dini memarlıq abidələri istiqamətində apardığı tədqiqatı təqdim edib.


Daha sonra Dövlət Proqramı xətti ilə dünyanın nüfuzlu universitetlərində doktorantura təhsili alan azərbaycanlı gənc tədqiqatçıların çıxışlarından ibarət videoçarx nümayiş olunub.

Tədbirdə konfransın tərəfdaş qurumlarına təşəkkür plaketləri təqdim olunub və xatirə fotosu çəkdirilib.

Tədbir Naxçıvan Dövlət Universitetinin Simfonik Orkestrinin konsert proqramı ilə davam edib. Orkestrin ifasında təqdim olunan musiqi nömrələri tədbirin bədii hissəsinə xüsusi rəng qatıb.

Qeyd edək ki, hibrid (onlayn və əyani) formatda təşkil olunan konfrans 2 gün ərzində 21 zalda, 104 bölmə üzrə öz işini davam etdirib.

# Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Naxçıvan Muxtar Respublikasına səfər edib




Noyabrın 2-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Naxçıvan Muxtar Respublikasına səfər edib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucalan abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri düzüblər.



şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Sonra 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfəri, eləcə də işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işlərini əks etdirən videoçarx nümayiş olunub.

Konsert proqramında mərkəzin musiqi terapiyası bölməsinin benefisiarlarının ifasında "Sən qalibsən", "Azərbaycan", "Vətənimə qurbanam", "Zəfər mahnısı" və digər musiqi nömrələri təqdim edilib. İfaçıları Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin benefisiarlarından ibarət və bədii rəhbəri Gülafər Məhərrəmova olan Mahnı və Rəqs Ansamblı müşayiət edib.

# Naxçıvanda 8 Noyabr – Zəfər Günü münasibətilə inklüziv konsert proqramı təşkil edilib



Noyabrın 5-də Heydər Əliyev Sarayında Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin benefisiarlarının iştirakı ilə 8 Noyabr – Zəfər Gününə həsr olunan inklüziv konsert proqramı təşkil edilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, dövlət və hökumət nümayəndələri, media təmsilçiləri, blogerlər və ictimaiyyət nümayəndələri iştirak edib-lər. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və







Azərbaycan Respublikasının Əməkdar artisti Fərqanə Qasımova "Ürəklərə bağlıyam" mahnısını ifa edib. İlk dəfə tamaşaçılar qarşısında ifa edilən bu mahnı hərarətli alqışlarla qarşılanıb. Daha sonra tanınmış ifaçı mərkəzin benefisiarları ilə birlikdə "Qarabağ" mahnısını səsləndirib.

Sosial həssas qruplardan olan şəxslərin cəmiyyətə inteqrasiyasına, onların yaradıcılıq potensialının üzə çıxarılmasına və istedadlarının geniş ictimaiyyətə tanıdılmasına xidmət edən konsert proqramı tamaşaçılar tərəfindən maraqla qarşılanaraq alqışlarla müşayiət olunub.

# Nurəli Yusifbəyli: NASCO29 gənc alimlərin formalaşması baxımından mühüm platformadır

"Belə elmi platformalar gənc tədqiqatçıların bilik və bacarıqlarının inkişafına, elmi mühitə inteqrasiyasına, eləcə də ölkədə elmi potensialın gücləndirilməsinə xidmət edir".

Bu fikirləri jurnalistlərə açıqlamasında Sumqayıt Dövlət Universitetinin rektoru Nurəli Yusifbəyli deyib. O, NASCO29 konfransının ölkəmizdə elmi potensialın artırılması, elmin inkişafı və gənc alimlərin formalaşması baxımından əhəmiyyətini vurğulayıb. Rektor, həmçinin qeyd edib ki, Prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyasının VIII Qurultayında səsləndirdiyi mühüm fikirlər sırasında insan kapitalının formalaşdırılması xüsusi yer tutur. Ölkənin əldə etdiyi nailiyyətlərin davamlılığının yalnız sosial-iqtisadi və hərbi güclə deyil, eyni zamanda insan kapitalının inkişafı ilə bağlı olduğunu diqqətə çatdırıb.

Nurəli Yusifbəylinin sözlərinə görə, miqyasına və məzmununa görə ən böyük respublika elmi konfransı olan NASCO29 da məhz bu məqsədlərə xidmət edir: "Hesab edirəm ki, bu konfransdan əldə olunacaq nəticələr universitetlər, ölkəmiz və bütövlükdə, cəmiyyətimiz üçün faydalı olacaq, yeni tədqiqatlara və nəticəyönümlü fəaliyyətlərə imkan yaradacaq".



# Zəfər Qurbanov: Gənc tədqiqatçıların elmi araşdırmaları aqrar sahənin gələcək inkişafına mühüm töhfə verəcək

Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru Zəfər Qurbanov NASCO 29-un əhəmiyyətindən, aqrar sahədə aparılan elmi araşdırmalardan və gənc tədqiqatçıların rolundan danışıb: "İlk növbədə, qeyd etmək istəyirəm ki, son illərdə möhtərəm Prezidentimizin Azərbaycanda kənd təsərrüfatının inkişafı ilə bağlı həyata keçirdiyi müxtəlif layihələr və Dövlət proqramları alimlərin, eləcə də gənc tədqiqatçıların üzərinə ciddi məsuliyyət qoyur. Bu gün



qürurla qeyd edə bilərik ki, ölkəmizdə həm doktorantlar, həm də gənc tədqiqatçılar aqrar sahədə elmi və tədqiqat fəaliyyətinə böyük maraq göstərirlər. Hesab edirik ki, gənc tədqiqatçılarda formalaşan bu maraq, eyni zamanda belə mötəbər elmi konfransların təşkili onların elmi fəaliyyətinə əlavə stimul verir".

Rəhbərlik etdiyi universitetin konfransda təmsil olunmasına da toxunan Zəfər Qurbanov qeyd edib ki, Azərbaycan Dövlət Aqrar Universitetindən 20-yə yaxın tədqiqatçı tədbirdə iştirak edib. O, gələcəkdə universitet alimlərinin və gənc tədqiqatçılarının belə elmi platformalarda daha geniş təmsil olunacağına ümidvar olduğunu bildirib.

Konfransda təqdim edilən elmi işlərin mövzu müxtəlifliyinə diqqətçəkən rektor aqrar sektor üçün aktual olan istiqamətləri də vurğulayıb: "Burada olduqca maraqlı mövzular təqdim olundu. Aqrar sektorda, xüsusilə aktual əhəmiyyət daşıyan iqlim dəyişiklikləri ilə bağlı tədqiqatlar diqqət çəkib. Bununla yanaşı, müasir suvarma sistemləri, kənd təsərrüfatının inkişafına və sərəliliyinin artırılmasına xidmət edən digər istiqamətlər üzrə araşdırmalar da mühüm əhəmiyyət daşıyıb. Düşünürəm ki, bu mövzuların elmi müzakirəsi və əldə olunan nəticələrin praktikada tətbiqi aqrar sektorun qarşısında duran məsələlərin həllinə kömək edəcək".

Zəfər Qurbanovun sözlərinə görə, NASCO29 kimi genişmiqyaslı elmi tədbirlər universitetlər arasında əməkdaşlığın inkişafı baxımından əhəmiyyətlidir.

# Anar Nağıyev: Bugünkü platforma NASCO konfransları tarixində həcminə görə ən böyük konfrans hesab olunur

Doktorantların və gənc tədqiqatçıların 29-cu Respublika Elmi Konfransında iştirak edən Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev də öz təəssüratlarını jurnalistlərlə bölüşüb: "Biz 29-cu dəfə Azərbaycanda Doktorantların və gənc tədqiqatçıların Respublika Elmi Konfransını NASCO29-u keçiririk. Bu platforma elmin inkişafında, elmi tədqiqatların aparılması və əldə olunan nəticələrin innovasiyalar istiqamətində yönləndirilməsində, bütövlükdə isə elmi mühitin yaradılmasının inkişafında çox mühüm rol oynayır. Qeyd etmək lazımdır ki, təşkil olunan konfrans NASCO konfransları tarixində həcminə görə ən böyük konfrans hesab olunur. Yüzlərlə doktorant və gənc tədqiqatçı bu konfransda iştirak edir. Tədbir həm əhatə dairəsinə, həm də Azərbaycanın müxtəlif ali təhsil müəssisələrindən olan tədqiqatçıların iştirakına görə fərqlənir".

Anar Nağıyev vurğulayıb ki, dördüncü Sənaye İnqilabının tələbləri və süni intellektin həyatımıza daxil olduğu yeni mərhələdə elmin və elmi-texnoloji inkişafın böyük gələcəyi vardır: "Bu baxımdan, Azərbaycanda elmi yaradıcılıq və elmi inkişaf da xüsusi əhəmiyyət daşıyır. Düşünürəm ki, müxtəlif ali təhsil müəssisələrindən olan tədqiqatçıların bu konfransda təqdim etdiyi elmi işlər təkcə onların şəxsi nəticələri kimi qalmayacaq. Bu tədqiqatlar həmkarlarla müzakirələr və daha geniş elmi mühit çərçivəsində elmimizin və təhsilimizin inkişafına mühüm töhfə verəcəkdir".



Rektor diqqətə çatdırıb ki, Azərbaycan yeni reallıqlar şəraitində elmin inkişafını dinamik şəkildə davam etdirir: "Bu platformanın məhz müasir və gələcək Azərbaycanın inkişafına mühüm töhfələr verəcəyinə inanıram. Bakı Slavyan Universitetinin tədqiqatçıları da bu prosesdə fəal iştirak edirlər. Universitetimizin 18 tədqiqatçısı konfransda iştirak edir. Onlar müxtəlif elm sahələri üzrə tədqiqat aparırlar. İştirakçılar arasında Bakı Slavyan Universitetinin doktoranturasında təhsil alan əcnəbi vətəndaşlar da var. Konfransda süni intellekt, təhsilin inkişafı, dilçilik, tarix və digər humanitar elmlər sahəsində aparılan maraqlı tədqiqatlar təqdim olunub".

# Cəfər Cəfərov: NASCO29 yeni nəsil tədqiqatçıların yetişməsinə töhfə verəcək

Naxçıvanda "Şəhərsalma və Memarlıq İli"nə həsr olunmuş Doktorantların və gənc tədqiqatçıların Respublika Elmi Konfransı (NASCO29) keçirilib. 123 elm və təhsil müəssisəsindən 1627 elmi işin təqdim olunduğu konfrans iştirakçı sayına və əhatə dairəsinə görə NASCO tarixinin ən böyük tədbiridir. Elmi müzakirələrlə yanaşı, gənc tədqiqatçılar üçün akademik əməkdaşlıq və təcrübə mübadiləsi imkanları yaradan konfrans ölkəmizin elmi potensialının inkişafına mühüm töhfə verməyi hədəfləyir.



Tədbir iştirakçılarından Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov jurnalistlərə müsahibəsində bildirib ki, elə onun özü də təhsilə məhz Naxçıvanda başlayıb, sonradan isə ailəsi ilə birlikdə buradan köçüb: "Yenidən doğma Vətəndə olmaq, hər dəfə bu şəhərin inkişafını görmək çox xoşdur. Bu gün isə doktorantların, dissertantların, gələcəyin tədqiqatçılarının bir araya gəldiyi mühüm elmi toplantıda iştirak etdik. Konfransın açılışı çox yüksək səviyyədə təşkil olunub. Tədbirdə həm ümumi hazırlıq prosesi, həm də səlahiyyətli nümayəndənin mövcud vəziyyət və inkişafla bağlı fikirləri, eləcə də tədqiqatçılar qarşısında duran vəzifələr ətrafında geniş söhbətlər aparıldı. İnanıram ki, bu konfrans yeni nəsil tədqiqatçıların yetişməsinə əhəmiyyətli töhfə verəcək. İnkişaf edən Azərbaycanın gələcəyi naminə elm və təhsil müəssisələrində çalışan mütəxəssislərimiz də öz bilikləri, araşdırmaları və yeni ideyaları ilə ölkəmizin tərəqqisinə töhfə verəcəklər".

# Zirvədəki şəhər – Zəfərin zirvəsi

## Hədəf Şuşadır

Tariximizin şanlı səhifələrinin yazıldığı bütöv Vətən uğrunda 44 günlük mübarizəmizin son günləri düşməni mat vəziyyətinə aparan son strateji gedişlərin başlanğıcı oldu. Ordumuz şahmat taxtasındakı piyadalarını ("İtiqovan" PUA-ları və taktiki qrupları) və ağır fiqurlarını meydana çıxararaq düşməni çıxılmaz vəziyyətə saldı. Həmin günlərdə artıq düşmənin mühüm müdafiə mövqelərindən biri olan Qubadlı şəhəri və rayonun bir neçə kəndi işğaldan azad edilmişdi. Azərbaycan Ordusu cənub cəbhəsində qazandığı strateji üstünlüklə Ermənistan silahlı qüvvələrinin müdafiə xətlərini darmadağın etdi. Artilleriya və XTQ-nin uğurlu əməliyyatları rəqibi çıxılmaz vəziyyətə saldı. Bu qalibiyyətlə Azərbaycan Ordusu cənub cinahında tam üstünlük qazandı, torpaqlarımızı azad etmək yolundakı əks-hücum tam bərpa olundu. Düşmənin taktiki geri çəkilmə yolları kəsildi, əks-hücum cəhdlərinin qarşısı qətiyyətlə alındı, xeyli sayda tank və "Qrad" sistemləri məhv edildi. Bu, rəqibin son aktiv fiqurlarının itirilməsi, hər bir hərəkətin vəziyyəti daha da pisləşdirməsi demək idi. Ordumuz üstünlüyü tamamilə ələ keçirdi və düşmən nə geri çəkilə, nə də müqavimət göstərə bildi. Bu isə düşmənin yaratdığı mövqeni tamamilə mühasirəyə alan və həlledici mat vəziyyətinə aparan son strateji gedişlərin başlanğıcı oldu. Hədəf isə Şuşa idi...

### Şuşa əməliyyatı – "Gizli gediş"

Döyüş meydanında ən gözlənilməz və sarsıdıcı gedişlər, adətən, rəqibin görmədiyi cinahlardan gəlir. Şuşanın azad edilməsi əməliyyatı da məhz belə qəhrəmanlıq nümunəsi oldu. Oktyabrın sonlarından etibarən Azərbaycanın Xüsusi Təyinatlı Qüvvələri Şuşa istiqamətində sıx meşələrdən, sıldırım qayalardan və keçilməz dağ cığırları ilə irəliləməyə başladı. Azərbaycan Ordusu Şuşanı Ermənistanla bağlayan əsas təchizat xəttini (Laçın-Şuşa yolunu) nəzarətə götürərək düşmənin şəhərə əlavə qüvvə və ağır texnika gətirməsinin qarşısını kəsməyə nail oldu. Şuşaya hücum planı iki mərhələdən ibarət idi – saxta gediş və pusqu. Ordunun bir hissəsi düşmənin gözlədiyi yerdə hücum görüntüsü yaradır, digər qrupu gizli şəkildə düşmənin arxasına keçərək şəhərə daxil oldu.

Şəhərə qalxan yeganə yola hərbi qüvvə və zirehli texnika yığan düşməni Cıdır düzündən və Şuşa qalasından şəhərə daxil olan xüsusi təyinatlı qüvvələr üzbəüz döyüşdə məhv etdi. Şuşa aşağıdan yuxarıya doğru müasir hərb elminin bütün prinsiplərinə zidd bir əməliyyatla azad olundu. Bütün dünya mətbuatı Azərbaycan əsgərinin igidliyindən, Ali Baş Komandanımızın mahir sərkərdəliyindən danışdı. Dağ yuxarı şəhidi çiynində qalxan igid oğullarımız dağlara, qayalara çiyin verib, təbiətə güvənib, torpaqla sirdaş olub qalib gəldi. Günəşin torpağını isitmək istəmədiyi, Ayın işıq salmağa çəkindiyi, xarıbülbülün açmadan solduğu, Topxana meşəsinin fəryadının ərşə qalxdığı günlər bitdi. Bu xalqın həsrət dolu günləri vüsalına qovuşdu. Şuşanın başı üstündə dalğalanan Azərbaycan Bayrağı şəhid məzarı başında dayanan analara qürur, illərdir, torpaq həsrəti çəkən insanlarımıza yeni həyat verdi.

### Əziz Şuşa, biz səni dirçəldirik

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə bərpa olunan Şuşada aparılan bərpa və quruculuq işlərinin miqyası olduqca möhtəşəmdir. Şuşa həm sürətlə bərpa olunur, həm də ev sahibliyi etdiyi müxtəlif məzmunlu tədbirlərlə Azərbaycanın Vətən müharibəsindəki zəfərini bütün dünyaya bəyan edir. Qardaşlığa qucaq açır, Türk dövlətlərinin zəfər zirvəsinə çevrilir.

Artıq altı ildir ki, bu şəhərə yolu düşən hər kəs burada cənnətin timsalını görür. Bir-birindən gözəl yaşayış binalarının, tarixi abidələrin, təbiət gözəlliklərinin seyrinə çıxır. Heydər Əliyev, 8 Noyabr, Dəmir yumruq, Zəfər, Qarabağ küçələrindən keçən yol bizi "Xan qızı" bulağına, Bülbülün ev-muzeyinə, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinə, Mehmandarovların malikanəsinə aparır. "Xarıbülbül" və "Qarabağ", "Yasəmən" hotelləri, Şuşa Hotel-Konqres Mərkəzi Kompleksi şəhərin müasir memarlığını özündə əks etdirir. Şuşa məktəbindən gələn şən uşaq gülüşləri yurdumuza qayıdışın simvoluna çevrilib. Topxana meşəsinin, İsa bulağının, Çətir şələlənin gözəlliyi insanın ruhuna sakitlik gətirəndə Cıdır düzündə şahə qalxan Qarabağ atının kişnərtisi, "Vətən yaxşıdır" mahnısının sədaları ilə birləşib Şuşa dağlarında əkssəda verir. Vaqifin poeziya günləri, Xarıbülbül Musiqi Festivalı Azərbaycanın mədəniyyət beşiyində yenidən həyat tapır.

Bir səhər açılır Şuşada. Bir payız səhəri yenicə bişən isti çörəyin ətri şəhərə yayılıb – Şuşa çörəyinin. Uşaqlar məktəbə tələsir, gənc memar inşaata. Ömrünün 28 ilini Şuşasız keçirən qoca şəhərin mərkəzində, güllələnmiş heykəllərin qarşısında, ayağını Şuşa döyüşlərində Vətənə qurban verən zabit Cıdır düzündə dayanıb, uzaqlara zillənib baxışları... Şəhid anası Şuşa qalasında dalğalanan bayrağa baxır: igid oğluna bəy köynəyi olan üçrəngli, ay-ulduzlu Zəfər bayrağına.

**Ramiyə ƏKBƏROVA**




*Şuşadayam. 2020-ci il, noyabrın 8-i. Dağın zirvəsində dayanmışam. Əllərim hələ də silahın soyuqluğunu sıxır, amma barmaqlarım artıq titrəmir. Ətrafda dağlar, aşağıda dərələr görünür. Şuşa sakit və yorğundur, sanki illərlə tutduğu nəfəsini, nəhayət, buraxıb. Başımın üstündə isə üçrəngli bayrağımız küləklə dalğalanır. Ona baxıram və hər şey gözümün önündən keçməyə başlayır. Deyirlər, insanın həyatı ölüm anında gözünün önündən gəlib keçər. Məndə isə zəfər anında geridə qoyduğum bütün yol bir yuxu kimi gözlərim önündə canlanır…*

# "Bayrağı mənim əvəzimə də qaldır"

Əvvəlcə kəndimizin yolu gəlir gözümün önünə. Toza batmış, qoyun-quzuların izi qalmış bu yolla anam hər səhər bulağa gedərdi. Sonra bizim həyət: divarın dibində qurumuş tənək, taxta qapının cırıltısı, uşaqlığımda yıxılıb dizimi yaraladığım daş pilləkən. Babam isə hər axşam eyvanda oturub dağlara baxardı. Onun otağından həmişə nanə və tüstü qoxusu gələrdi. Yadımdadır, bir dəfə mənə demişdi: "Torpaq gözdən uzaq düşəndə, insanın ürəyinə köçüb orada döyünməyə başlayır". O vaxt bu sözlərin mənasını anlamırdım. İndi isə anlayıram.

Sonra 2020-ci il sentyabr ayının son günləri gəlir gözümün önünə. Hər şey bir səhər başladı. Anam təndirdən təzə çıxartdığı isti çörəkləri ocağın yanına düzürdü. Elə bu an telefon zəng çaldı. Zəngdə uzun söhbət olmadı, bircə cümlə eşidildi: "Çağırırlar." Anam əlindəki isti çörəyi yerə qoymadı, eləcə donub qaldı. Sadəcə mənə baxdı. Mən o baxışı ömrüm boyu unutmayacağam. Orada nə qorxu vardı, nə də bir kəlmə yalvarış. O baxışda ananın övladına duyduğu sonsuz sevgi, sükuta bürünmüş gizli dualar və səssiz intizar vardı.

Yola düşəndə mənə kiçik bir bağlama verdi. İçində çörək, bir az pendir, bir də əlləri ilə tikdiyi dəsmal vardı. Heç nə demədi. Yalnız qapıdan çıxanda arxamca su atdı. Kəndin ağsaqqalları yolun kənarında dayanmışdılar. Heç kəs ucadan danışmırdı. Yalnız bir qoca əlini çiynimə qoyub dedi: "Get oğul, torpaq səni gözləyir". Avtomobil tərpənəndə güzgüdən anamı gördüm. Astanada tənha qalmışdı, illərdir, məni qoruyan o böyük dağ avtomobil irəlilədikcə kiçildi, kiçildi və nəhayət, gözdən itdi…

Cəbhənin ilk günü gəlir ağlıma. 27 sentyabr idi. Biz Cəbrayıl istiqamətində səngərə girdik. Qulaqlarım atəş səslərindən tutulmuşdu, havada barıt və yanmış torpaq qoxusu vardı. Səngər dar idi, yağış isə dayanmırdı. Palçıq çəkmələrimin içinə dolmuşdu, hər addımda elə bil torpaq məni özünə çəkirdi. Gecələr soyuq sümüklərimizə işləyirdi. Dişlərimiz birbirinə dəyir, əllərimiz hissini itirirdi. Yuxu yox idi, yalnız yarıyuxulu anlar yaşayırdıq. Gözlərini bir anlığa yumursan, dərhal yenidən açırsan, çünki ətrafda hər şey bir saniyənin içində dəyişə bilərdi.

Çətin olan yalnız soyuq və aclıq deyildi. Ən çətini gözləmək idi. İrəli getməyi, əmri, sabahı, evdən gələcək xəbəri gözləyirdik. Telefon bəzən günlərlə işləmirdi. Mən anamın səsini xatırlamağa çalışırdım və qorxurdum ki, bir gün onu xatırlaya bilməyəcəyəm. Gecələr gözümü yumub kəndimizi təsəvvür edirdim: bulağı, tənəyi, eyvanı... Bəzən bu təsəvvür o qədər canlı olurdu ki, yağışın səsi qulağımda evdəki ocağın, çaydanın qaynama səsinə çevrilirdi.

Yanımda bir dostum da vardı. Bir-birimizi elə orada tanımışdıq, amma sanki on illərdir, bir-birimizi tanıyırdıq. Müharibədə dostluq belə yaranır, sən bir tikə çörəyi yarıya bölürsən və bu bütün yaxınlığın başlanğıcı olur. Gecələr səngərdə yan-yana oturub öz kəndlərimizdən danışırdıq. O, ata bağındakı tut ağacından, yay axşamlarının sakitliyindən, gələcəkdə tikəcəyi evdən söz açırdı. Mən isə çox vaxt heç nə deməzdən, sadəcə, qulaq asırdım. Onun səsi mənə evimizi xatırladırdı.

Bir gün Füzuli istiqamətində irəliləyirdik. Atəş səsləri bir-birinə qarışmışdı. Dostumu tapanda artıq gec idi. Yanına qaçdım, başını dizimin üstünə qoyub, üzünə baxdım. Sakit idi, sanki yatmışdı. Bircə cümlə dedi, güclə eşidilən səslə: "Bayrağı mənim əvəzimə də qaldır". Sonra gözləri yavaşca yumuldu. Mən o gün ağlamadım, çünki ağlamağa vaxt yox idi. Dişlərimi sıxdım, silahı götürdüm və irəli getdim. Amma həmin an içimdə elə bir şey qırıldı ki, bir daha heç vaxt əvvəlki kimi ola bilmədim.

Sonrakı günlər dumanın içində keçdi. Cəbrayıl, Füzuli, Hadrut… Hər addımda torpaq bizə müqavimət göstərirdi, amma biz getdikcə irəliləyirdik. Qorxu var idi, əlbəttə ki, var idi. Qorxmadığını deyən ya yalan danışır, ya da heç vaxt orada olmayıb. Amma qorxudan da uca bir duyğu var idi. Arxamızda bizi gözləyən böyük bir dünya dayanmışdı – anam, babam, doğma kəndimiz, kəndin ağsaqqalları və dostlarımın gözü yolda qalan ailələri... Düşünürdüm ki, bir addım belə geri çəkilsəm, onlar yenidən illərin ağrısına, bitməyən həsrətinə bürünəcəklər. Məhz bu fikir qorxumu boğur, mənə tükənməz güc verirdi.

Günlər keçdikcə Şuşaya yaxınlaşırdıq. Noyabrın əvvəlləri idi. Qarşımızda sıldırım qayalar, çətin keçidlər və bizi gözləyən ağır döyüşlər vardı. Hər addımda dostumun son sözləri qulağımda səslənirdi.

Bir gecə yuxuda babamı gördüm. Yenə eyvanda oturmuşdu, dağlara baxırdı. Mənə sarı dönüb gülümsəyib dedi: "Bu dəfə geri dönmək yoxdur, oğul. Get və haqqın olan o zirvəyə çat".

Noyabrın 8-i. Nəhayət, o zirvədəyəm. Şuşanın üstündəyəm. Başımın üstündə üçrəngli bayrağımız küləklə döyüşür, bükülüb-açılaraq dalğalanır. Dizlərim öz-özünə qatlanır, necə yerə çökdüyümü belə hiss etmirəm. Əllərimi sərt, lakin isti torpağa basıram, elə bil illərdir, yorğun düşmüş, torpaq, nəhayət, rahat nəfəs alır. Gözlərimdən axan yaş içimdəki bütün donmuş illəri əridir. Bu gözyaşları həm də çiyinlərimdəki ağır yükdən, dostumun əmanətini yerinə yetirməyin məsuliyyətindən qurtulmağın rahatlığıdır. Qulağımda onun səsi cingildəyir: "Bayrağı mənim əvəzimə də qaldır". Başımı qaldırıb dalğalanan bayrağa baxıram, dodaqlarım titrəyə-titrəyə pıçıldayıram: "Qaldırdım, qardaşım. Çatdıq".

Nəhayət, evə qayıdıram. Yol yenə o köhnə yoldur. Toz-torpaqlı yol, mal-qaranın izləri, uzaqdan boylanan əzəmətli dağlar... Anam həmişəki kimi qapının ağzında dayanıb. Nə o danışır, nə mən. Səssizcə, bir-birimizin gözlərinin içinə baxırıq. Çünki bəzən ən ağır, ən böyük həqiqətlər elə susqunluqda gizlənir. O, əlini ehtiyatla üzümə toxundurur, barmaqları ilə sanki yuxuda olmadığını, həqiqətən, qayıtdığımı yoxlayır. Sonra içəridən təndirdən təzə çıxmış, o tanış qoxulu isti çörəyi gətirir. Çörəyi əlimə alan kimi başa düşürəm ki, o uzun yolda mənə güc verən təkcə silahım, iradəm və qələbəyə inamım deyilmiş. Həm də bir isti çörək, anamın qırışlı əlləri və evdə məni gözləyən bir ürək imiş.

Bu gün – noyabrın 8-i Zəfər Günüdür. Meydanlarda bayraqlar dalğalanır, şeirlər oxunur, qələbə sevinci yaşanır. Bunların hamısı gözəldir və haqqımızdır. Amma bu möhtəşəm günün arxasında yağış altında yazılan qəhrəmanlıq dastanı, döyüş yoldaşı ilə bölünən çörək, qürurla irəli atılan addımlar, evdə gözü yolda, duası dilində qalan mərd analar dayanır. Zəfər minlərlə igidin misilsiz şücaətinin, iradəsinin, sarsılmaz qardaşlığının və Vətənə verdiyi sözə sədaqətinin şanlı yekunudur. Hər yeni səhərimizin kimlərinsə canı bahasına qazandığımız "bu gün"ün hesabına olduğunu unutmamalıyıq. Bunu bilmək hər birimizin qarşısında bir mənəvi borc qoyur: Zəfərə layiq olmaq! Torpağı sevməklə yanaşı, onun uğrunda ödənilən bədəli də unutmamaq. Çünki bayraq yalnız zirvədə qaldırılmır. O hər kəsin qəlbində, hər evdə, hər ananın duasında dalğalanır.

Dağın zirvəsində dayanıb aşağıya, azad torpaqlarımıza baxanda bir həqiqəti daha dərindən anlamışdım. Biz heç vaxt tək deyildik. Hər addımda bizimlə çiyin-çiyinə addımlayanlar vardı – yanımızda olanlar və ruhu ilə bizi qoruyanlar, gözə görünənlər və görünməz olanlar...


Bəlkə də, elə buna görə o zirvəyə təkcə öz adımızdan deyil, arxada qoyduğumuz bütün doğmalarımızın, şəhidlərimizin və Vətən həsrəti ilə yaşayanların adından yüksəlmişdik.

**Elnurə CƏFƏROVA**

# Salam, torpaq! Salam, əsgər!

8 il əvvəl qoyulmuş Günnüt yazılı nişan lövhəsinin qarşısında avtomobilimiz dayanır. Düz 8 il əvvəl bu lövhənin önündə keçirdiyimiz hissləri yenidən yaşayır, anı fotokameramızın yaddaşına köçürürük. Hər ötən gün bir tarixdir, şahidi olduğumuz zəfər müjdələri isə tariximizin qızıl səhifələridir. Bu səhifələri yaddaşlara köçürmək, onlar haqqında yazmaq, gələcək nəsillərə çatdırmaq qələmin müqəddəs vəzifəsidir. Qoy gələcək nəsillər oxusun və bilsinlər ki, bu torpaqlar hansı çətinliklər, hansı itkilər hesabına qorunub, qorunur və qorunacaq.

Yol yoldaşımız mayor Coşqun Cəfərov bizə bələdçilik edir. Məsafə uzandıqca yol çətinləşir. Avtomobilimiz gah enişə, gah yoxuşa qalxır, sərt döngələrdən, bəzən də ensiz yollardan keçərək uca dağların zirvəsinə doğru irəliləyir. Maşının şüşəsindən ətrafı seyr edirik. Diqqətlə müşahidə apardığımızı görən bələdçimiz bildirir ki, torpaqlar azad edildiyi gündən bu ərazilərdən kənd təsərrüfatı məqsədilə istifadə olunur. Havalar soyuduğundan yay aylarında istifadə edilən tövlələr, çəkilən hasarlar indi boş qalıb. Arıçılar da, fermerlər də artıq arana eniblər. Yolun solunda, dağın yamacında quraşdırılmış iri lövhə də diqqətimizi çəkir. Bu, 2018-ci ildə baş vermiş hadisə nəticəsində şəhid olan əsgərlərin adlarının əks olunduğu xatirə lövhəsidir. Vətənə xidmət yolunda şəhidlik zirvəsinə ucalanlar heç zaman unudulmur...



Ruhiyyə RƏSULOVA

### Şəhid Adil Tatarovun ruhuna ehtiramla


Uca dağların zirvəsində yerləşən postlardan birinin qarşısında dayanırıq. Bura həmin postdur – əsgər Adil Tatarovun şəhid olduğu mövqe. Onun şəhadətindən sonra posta Vətən oğlunun xatirəsinə ehtiram əlaməti olaraq "Tatar postu" adı verilib, xatirə lövhəsi qoyulub. Ehtiramla anırıq. Əzəmətli dağların qoynunda, Vətən keşiyində dayanan müzəffər Ordumuzun hərbi qulluqçuları ilə həmin günləri xatırlayırıq.

Aprel zəfərindən iki il sonra keçirilən Günnüt əməliyyatı Ordumuzun növbəti uğuru idi. Düşmən 2018-ci ildə növbəti təxribata əl atmış, mövqelərini daha da irəli çəkməyi planlaşdırmışdı. Lakin düşmən gözləmədiyi mənzərə ilə qarşılaşdı. Hərtərəfli düşünülmüş və dəqiqliklə planlaşdırılmış hərbi tədbirlər nəticəsində Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji yüksəkliklər Əlahiddə Ümumqoşun Ordunun keçirdiyi əməliyyat nəticəsində azad edildi, yeni mövqelər nəzarətə götürüldü. Ümumilikdə, 11 min hektara yaxın ərazi nəzarət altına alındı. Əməliyyat zamanı əsgər Adil Tatarov şəhidlik zirvəsinə yüksəldi. Bu gün onun adı unudulmur. Əksinə, xidmətə yeni gələn gənc əsgərlər üçün əsl vətənpərvərlik örnəyinə çevrilib.

### Bir ocaq başında bir isinməsək...

Dağları dövrələyən, düşmənə gözdağı olan daha bir posta yollanırıq. Burada əsgərlərlə görüşür, məişət şəraiti ilə maraqlanırıq. Təmizlik, səliqə-sahman göz oxşayır. Döyüş növbətçiliyində olan hərbi qulluqçular ayıq-sayıq dayanaraq üzərlərinə düşən vəzifəni yerinə yetirirlər.

Müsahibim baş leytenant Hüseyn Quliyev Heydər Əliyev adına Hərbi Liseyin məzunudur.



2020-ci ildə Vətən müharibəsinin ilk günlərindən Murov istiqamətində gedən döyüşlərə qatılıb. 2022-ci ilin sentyabr döyüşlərində, 2023-cü ildə isə antiterror əməliyyatı zamanı Ağdərə istiqamətində şücaət göstərib. "Kəlbəcərin azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub. Bir ildir ki, xidmətini Əlahiddə Ümumqoşun Orduda davam etdirir. Burada gənc əsgərlərlə öz təcrübəsini bölüşür, onlara döyüşçü ruhu aşılayır.

Əsgər Qadir Hüseynovla həmsöhbət oluruq. Bakı şəhərindəndir. Artıq 16 aydır ki, gecə-gündüz Vətənin keşiyində dayanır. Deyir ki, bu müddət ərzində daha



məsuliyyətli olmağı, hərbi tabeçilik qaydalarına riayət etməyi, komandirlərindən Vətəni sevməyi və onun müdafiəsində ayıq-sayıq dayanmağı öyrənib.

Əsgər Amin Qanzayev Zaqatala rayonunun Yuxarı Tala kəndindəndir. Bildirir ki, qalib Azərbaycan Ordusunun sıralarında xidmət



etmək onun üçün böyük qürurdur. Gündəlik vəzifələrini ruh yüksəkliyi ilə yerinə yetirdiyini deyir.

Nahar vaxtı olduğundan bizi yeməyə dəvət edirlər. Əsgər süfrəsinə qonaq oluruq. 44 günlük Vətən müharibəsi zamanı xalqla Ordunun birliyi gözlərimiz önündə canlanır. Həmin günlərdə insanlarımız arxa cəbhədə ayıq-sayıq dayanmış, əsgərlərimizin döyüş ruhunun yüksək olması üçün hər cür dəstək göstərmişdilər. İndi isə əsgərlərlə bir süfrə arxasında əyləşir, duz-çörək kəsirik. Şair necə də gözəl deyib:

*Bir ocaq başında bir isinməsək,*
*Sən kimə gərəksən, mən kimə gərək.*

### Dağların başında ərənlər yaşar

Yolumuza davam edirik. Dağların başında qartallar qıy vurur. Videoqrafımız Səhnə Tağızadəyə bu mənzərəni lentə almağı tapşırıram. Qartallar qanadlarını geniş açaraq sanki bu dağların sahibi olduqlarını bəyan edirlər. Bax, əsgərlərimiz də bu dağların zirvəsində yay-qış, isti-soyuq demədən döyüş növbətçiliyinə çıxır, ana balasını qoruyan kimi Vətəni göz bəbəyi kimi qoruyurlar.

Daha bir yerdə avtomobilimiz dayanır. Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Anar Əliyevin xatirəsinə ucaldılmış bulaq-abidənin suyundan içirik. Onu ehtiramla yad edirik.

Kəlbəcər rayonunun Boyaqlı kəndindən olan Anar Əliyev Naxçıvanda xidmət edib. 44 günlük Vətən müharibəsində Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. 2018-ci ildə Günnüt əməliyyatında Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun təcrübəli zabiti kimi yaxından iştirak edib. Bu gün onun qəhrəmanlığı və şücaəti əsgərlərə nümunə göstərilir.

Əsgər Sənan Cabbarov deyir ki, Anar Əliyev kimi qəhrəmanlarımızın bizə əmanət etdiyi torpaqları göz bəbəyi kimi qoruyurlar: "Əslən Tovuz rayonundanam. Vətənin hər guşəsi bizim üçün əzizdir. Onun hər qarışını qorumaq borcumuzdur. Burada təminatımız yüksək səviyyədədir. Xidmətimiz üçün zəruri olan bütün şərait yaradılıb".

Bu torpaqlarda neçə-neçə igid can verib, neçə-neçə qəhrəmanın şücaəti ilə düşmən ayağı bu yerlərdən təmizlənib. Dağlar da öz qəhrəmanlarının adını yaşadır, onların igidliyi ilə öyünür. Vətən



Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Anar Əliyevin adı da bu zirvələrdə ehtiramla anılır...

### Yüksəkliklərə doğru

Yüksəkliyə doğru irəliləyirik. Səkkiz il əvvəl piyada, çətinliklə qalxdığımız dağların qoynunda salınmış yolla avtomobilimiz hərəkət edir. Ərazinin etibarlı müdafiəsinin təşkili, bölmələrin manevr imkanlarının artırılması, eləcə də təminat və təxliyə işlərinin həyata keçirilməsi məqsədilə 50 kilometrdən artıq yeni yol çəkilib, 60 kilometrdən artıq yararsız yol bərpa edilib.

Prezident İlham Əliyev də Günnüt əməliyyatını Ordumuzun peşəkarlığının mühüm göstəricisi kimi səciyyələndirmiş, bu əməliyyatın böyük Qələbəyə gedən yolda strateji əhəmiyyətli hərbi uğur olduğunu vurğulamışdı: ***"Biz çox önəmli strateji yüksəklikləri Ermənistan ordusundan təmizlədik, o yüksəklikləri əldə etdik. Bu yüksəkliklər imkan verdi ki, biz artıq strateji kommunikasiyalara tam nəzarət edirik və Ermənistandan Qarabağa gedən yola da nəzarət edirik. İkinci Qarabağ müharibəsində bu yola nəzarət imkanlarımız bizə bir çox informasiyanın əldə edilməsində kömək göstərdi. Qarşı tərəf bilir ki, bizim nəzarətimizdə olan bu kommunikasiyalar istənilən vaxt kəsilə bilər və əlbəttə, öz addımlarını buna uyğun atmalıdır".***

Kapitan Yunis Quliyev bizi qarşılayır. Vətən müharibəsində, 2022-ci ilin sentyabr döyüşlərində və 2023-cü ilin antiterror əməliyyatında iştirak edən kapitan Yunis Quliyev səkkiz aydır ki, xidmətini Əlahiddə Ümumqoşun Orduda davam etdirir. Heydər Əliyev adına Hərbi Liseyin məzunu olan müsahibim "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif olunub.

O deyir: "Əsgər ayağı dəyməmiş torpaq bizim deyil. Sərt qayalara qalxmaq cəsarət tələb edir. Bura hər hansı texnika ilə azad ediləcək yer deyil. Günnüt əməliyyatı Ordumuzun ən uğurlu əməliyyatlarından biridir. Burada



hamı bir-birinə kürəyini söykəyib. 2018-ci ildən ön mövqelərdə xidmət edirəm. Gəncliyimin ən gözəl çağları bu dağlarda keçib. Vətənimin hər daşını, qayasını



qorumaq artıq mənim həyat amalıma çevrilib. Əsgərlərlə günün nizam qaydalarına uyğun iş aparılır. Dərslər keçirilir, onlar döyüş növbətçiliyinə cəlb olunurlar. Torpaqlarımızın bütövlüyü layiqincə qorunur. Bölmələrdə hər cür şərait yaradılıb. Bütün postlarda televizorlar, qəzet güşələri var. Dünyada və ölkəmizdə baş verən hadisələr şəxsi heyətə gündəlik çatdırılır".

Sırada dayanan əsgərlərlə salamlaşırıq. Öyrənirik ki, Cəlilabad rayonunun Günəşli kəndindən olan əsgər Bəfadar Cabbarovun doğum günüdür. Onu təbrik edirik. Hər bir əsgər düşmənə qarşı sipər, Vətənə dayaqdır. Sərt qayaların zirvəsində öz xidmətini sədaqətlə yerinə yetirən hər bir hərbi qulluqçu bu Vətənin fəxridir. Qış fəsli ilk olaraq bu yerlərdə özünü göstərəcək. O zaman yollar bağlanacaq, gediş-gəliş çətinləşəcək. Qarın üstündə mətanətlə dayanan Azərbaycan əsgərini isə yenə şükranlıqla xatırlayacağıq. Tanrı sizi qorusun, Vətən əsgəri!

### Sonuncu güllə və ya son söz əvəzi

Dərələyəz silsiləsi boyunca uzanan dağların əhatəsindəki kəndlərə durbinlə baxanda elə bil salam verəcək qədər yaxın görünür. Arpa, Aynəzir, Qoytul – Qərbi Azərbaycan torpaqları...

Tarix heç zaman unudulmur. O, cild-cild kitablara həkk olunur, eyni zamanda ruhumuza, ürəyimizə yazılır. Bu gün olmasa da, sabah hansısa dağın üstünə çökmüş qara buludlar mütləq çəkilib gedir. Necə ki, səkkiz il əvvəl Günnüt kəndi və ətrafındakı 11 min hektara yaxın ərazi üzərindən də qara buludlar çəkildi. Biz o tarixi, həmin tarixi anlarda qəhrəmanlıq göstərərək tarixə düşən igidləri heç zaman unutmayacağıq. Şərurun Günnüt kəndi 1992-ci ildə düşmən hücumuna məruz qalmışdı. Həmin dövrdə təkcə Düdəngə kəndindən 32 polis əməkdaşı ön cəbhədə düşmənlə üz-üzə dayanmışdı. Onlardan biri də Asəf Rəhimov idi. Sədərək döyüşlərinin iştirakçısı olan Asəfin müdafiə etdiyi ərazilər Günnüt kəndi və onun ətrafı idi. Günnüt kəndi müdafiə mövqelərini möhkəmləndirmək baxımından ermənilər üçün mühüm strateji əhəmiyyət daşıyırdı.

Sədərəkdə qızğın döyüşlər gedərkən düşmən müdafiə qüvvələrimizi parçalamaq məqsədilə Günnüt kəndini də atəşə tuturdu. Qeyri-bərabər döyüşdə Mərdan Abbasov adlı döyüşçü ağır yaralanır, polis əməkdaşlarını atəş xəttindən çıxaran digər döyüşçü isə mühasirəyə düşür. Bu, "Əlibaba" ləqəbi ilə düşmənin canına vəlvələ salan Asəf Rəhimov idi. Son ana qədər erməni silahlılarına qarşı təkbaşına döyüşən "Əlibaba" 17 nəfər silahdaşının həyatını xilas edir. Dörd bir tərəfdən mühasirəyə alınan qəhrəman sonuncu güllәsini özünə sıxır...

Asəf Rəhimov Günnütün ilk şəhidi və müdafiəçisi kimi adını tarixə qızıl hərflərlə yazdırır. Həmin il onun şücaəti haqqında qəzet səhifələrində silsilə yazılar dərc olunur, qəhrəmanlığı örnək göstərilir. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 30 iyun tarixli Sərəncamı ilə Asəf Bayram oğlu Rəhimov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilir. Bu torpaqların hər qarışında ata-babalarımızın qəhrəmanlıq dastanı yazılıb. Hər qarışı şəhid qanı ilə yoğrulub. Bu torpaqlara ayaq basanda da ehtiyatla, sevgi və ehtiramla addımlamaq lazımdır. Çünki torpağın da ruhu var.

*Vətən torpağına, Vətənin əsgərinə böyük ehtiramla...*

# 2 noyabr – 9 noyabr

## 2020-ci il

**Prezident İlham Əliyev:**

***Bu gün Azərbaycan Ordusu döyüşdə qalib gəlir. Bu gün biz şəhərləri, kəndləri bir-birinin ardınca azad edirik.***

# Vətən müharibəsinin xronikası

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Şanlı Vətən müharibəsi otuzillik işğala son qoyan parlaq Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər yürüşü Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.

### 2 noyabr – müharibənin 37-ci günü

– Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərini işğaldan azad edib. Bu barədə Prezident İlham Əliyev özünün "Twitter" hesabında bildirib.

– Cəbhənin müxtəlif istiqamətlərində düşmən şəxsi heyət və hərbi texnika baxımından itkilərə məruz qalıb.

– Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu sahəsində düşmən hücuma cəhd göstərib. Döyüş nəticəsində canlı qüvvə sarıdan itki verən işğalçı ordu Ermənistan ərazisinə çəkilməyə məcbur edilib.

– Ermənistan silahlı qüvvələri-



nin dörd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, bir "KUB" zenit-raket kompleksi, daimi dislokasiya məntəqəsi, səngər və atəş mövqelərindəki canlı qüvvəsi məhv edilib.

### 3 noyabr – müharibənin 38-ci günü

– Döyüş əməliyyatları, əsasən, cəbhənin Ağdərə, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmənin xeyli sayda canlı qüvvəsi, dörd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, bir KUB zenit-raket komplek-



si, doqquz müxtəliftipli topu və iki sursatla dolu yük maşını sıradan çıxarılıb.

– Azərbaycanın Zəngilan rayonu istiqamətində Ermənistan ilə dövlət sərhədində düşmənin kəşfiyyat-diversiya qrupu zərərsizləşdirilib.

– Cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətində hücuma cəhd göstərən düşmən ağır itkilərə məruz qalaraq geri çəkilib.

– Düşmənin snayper qrupu və əlahiddə zirehli tank taborunun komandiri məhv edilib.

– Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində sentyabrın 27-dən noyabrın 3-dək 91 mülki şəxs həlak olub, 405 nəfər xəsarət alıb, 2 min 488 ev, 97 yaşayış binası və 461 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

### 4 noyabr – müharibənin 39-cu günü

Prezident İlham Əliyev: ***"Biz ərazi bütövlüyünün bərpasını, demək olar ki, 30 il idi, gözləyirdik".***

– Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Basarat, Qarakişilər, Qaracallı kənd-



lərini işğaldan azad edib. Bu barədə Prezident İlham Əliyev özünün "Twitter" hesabında bildirib.

– Prezident İlham Əliyev İtaliyanın "La Repubblica" qəzetinə müsahibə verib. Jurnalistin Cənab Prezident, Siz artıq qələbəni dadmısınız? Sualına Prezident belə cavab verir: ***"Biz qələbədən danışarkən qarşımıza belə bir hədəf qoymamışdıq. Biz onu danışıqlar masasında həll etmək istəyirdik. Lakin biz bunu döyüş meydanında etməyə hər zaman hazır idik və bunu da edirik".***

– Döyüş əməliyyatları müxtəlif intensivliklə cəbhənin Tərtər, Ağdam, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmənin xeyli sayda canlı qüvvəsi, iki T-72 tankı, üç D-30 topu, "Zastava M-55" zenit qurğusu, bir taktiki PUA-sı, üç hərbi yük maşını sıradan çıxarılıb.

– Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində hücuma cəhd edən düşmən şəxsi heyət və hərbi texnika baxımından itkilər verərək geri çəkilib. Ermənistan hərbi birləşmələrinin alay komandiri, tabor komandiri, snayper qrupu məhv edilib.

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

– Ermənistan silahlı qüvvələrinin "M-55" zenit qurğusu dəqiq atəşlə vurulub.

– Ermənistan ərazisindən Zəngilan istiqamətindəki bölmələrimizə qarşı diversiya cəhdinin qarşısı alınıb.

– Ermənistan ordusunun təxribatları nəticəsində sentyabrın 27-dən noyabrın 4-dək 91 mülki şəxs həlak olub, 405 nəfər xəsarət alıb, 2 min 734 ev, 98 çoxmənzilli yaşayış binası və 500 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

### 5 noyabr – müharibənin 40-cı günü

– Döyüş əməliyyatları müxtəlif intensivlikdə cəbhənin Ağdərə və Xocavənd istiqamətlərində davam edib.

– Prezident İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibə verib.



– Cəbhənin Tərtər istiqamətində düşmənin hərbi infrastrukturuna ciddi zərbələr endirilib. Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tonaşen kəndindəki 7-ci dağatıcı alayının qərargahı, əsgər kazarmaları, sursatla dolu avtomobil texnikaları və digər hərbi infrastrukturu dəqiq artilleriya atəşi ilə dağıdılıb.

– Ermənistan ordusunun 41-ci artilleriya alayının batareyası və hərbi kolonu məhv edilib.

– Düşmənin dinc əhaliyə qarşı təxribatları nəticəsində sentyabrın 27-dən noyabrın 5-dək 92 mülki şəxs həlak olub, 404 nəfər xəsarət alıb, 2 min 971 ev, 100 çoxmənzilli yaşayış binası və 502 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

Düşmən geri çəkilməyə məcbur olub.

### 6 noyabr – müharibənin 41-ci günü

– Ordumuz Ağdam və Ağdərə istiqamətlərində düşmənin hərbi kolonunu, artilleriya batareyasını və silah-sursat anbarını darmadağın edib. Düşmənin komandir heyəti də daxil olmaqla xeyli sayda canlı qüvvəsi, bir rabitə avtomobi-



li, sursatla dolu iki "KamAZ" və qoşqusunda top olan üç "Ural" maşını, xeyli sayda digər sursat və artilleriya qurğuları məhv edilib. Ermənistan ordusunun bölmələri cəbhənin Qubadlı istiqamətində mövqeləri ataraq qaçıb.

– Düşmənin minaatanlarının atış nöqtələrinə və döyüş mövqelərinə zərbələr endirilib.

– Ermənistan ordusunun təxribatları nəticəsində sentyabrın 27-dən noyabrın 6-dək 92 nəfər həlak olub, 404 nəfər isə xəsarət alıb, 3 min 64 ev, 100 yaşayış binası və 504 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

### 7 noyabr – müharibənin 42-ci günü

– Azərbaycan Ordusu Füzulinin Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar, Cəbrayılın Yuxarı Məzrə, Yanarhac, Qubadlının Qəzyan, Balasoltanlı, Mərdanlı, Zəngilanın Beşdəli, Xocalının Qarabulaq, Moşxmaat,



Xocavəndin Ataqut, Tsakuri kəndlərini işğaldan azad edib. Bu barədə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün rəsmi "Twitter" hesabında bildirib.

– Ağdərə istiqamətində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə mövqelərinə artilleriya zərbələri endirilib. Həmçinin işğalçı ordunun 6-cı dağatıcı alayının birinci taborunun bölmələrinin şəxsi heyəti itkilərə məruz qalıb, D-30 artilleriya divizionunun 3-cü batareyasının topları sıradan çıxarılıb.

– Döyüşlərdə xeyli sayda şəxsi heyət və hərbi texnika itkisi verən düşmən geriyə çəkilməyə məcbur edilib. Bölmələrimiz Ermənistan ordusunun 178-ci əlahiddə kəşfiyyat taborundakı, eləcə də 022-ci xüsusi təyinatlı hərbi hissəsinin şəxsi heyətini məhv ediblər.

– Düşmənin Ağdamdan Xankəndi istiqamətində hərəkət edən 3 "KamAZ", 2 "Ural" və 2 PDM-dən ibarət hərbi kolonunun atəşə tutulması nəticəsində çoxlu sayda hərbi qulluqçusu məhv edilib.

### 8 noyabr – müharibənin 43-cü günü

– Şuşa şəhəri işğaldan azad edilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva



bu münasibətlə Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət edib.

– Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev birlik komandiri, general-leytenant Hikmət Mirzəyevə zəng edərək onu Şuşa şəhərinin işğalçılardan azad olunması münasibətilə təbrik edib.

– Döyüş əməliyyatları müxtəlif intensivlikdə cəbhənin, əsasən, Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Ermənistan silahlı qüvvələrinin xeyli sayda canlı qüvvəsi, dörd T-72 tankı, iki D-20 topu və döyüş sursatı ilə dolu bir neçə hərbi yük avtomobili sıradan çıxarılıb.

– Cəbhənin Xocavənd istiqamətində Ermənistan ordusunun ön idarəetmə məntəqəsinə hava zərbələri endirilib. Düşmənin yüksəkvəzifəli şəxsləri məhv edilib. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

– Xocavənd istiqamətində düşmən bəzi mövqeləri ataraq qaçıb.

– İşğaldan azad olunmuş Zəngilan rayonundakı sərhəd zastavalarında Dövlət Bayrağımız ucaldılıb.

### Müharibənin 44-cü günü

– Ermənistan kapitulyasiya aktını imzaladı.

– Müzəffər Azərbaycan Ordusu Füzulinin Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Xocalının Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Xocavəndin Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Cəbrayılın Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qubadlının Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Zəngilanın Keçikli, Ördəkli kəndlərini işğaldan azad edib. Bu barədə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün "Twitter" hesabında bildirib.

– Daha 48 kənd, 1 qəsəbə və 8 strateji yüksəklik işğaldan azad edilib. Bu barədə dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün "Twitter" hesabında məlumat verib.

– Prezident İlham Əliyev "BBC News" telekanalına müsahibə verib.



– Döyüş əməliyyatları cəbhənin, əsasən, Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib.

– Laçın-Şuşa yolu üzərindəki Zarıslı kəndi yaxınlığında bölmələrimizə hücum etməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin bir tankı və bir piyada döyüş maşını vurulub. Xocalı-Şuşa yolu ilə Xankəndi istiqamətində hərəkət edən düşmən ordusunun canlı qüvvə ilə dolu qoşqusunda D-30 topu olan yük maşını zərbə PUA-ları ilə məhv edilib.

– Ermənistanın dinc əhaliyə qarşı törətdiyi təxribatlar nəticə-




sində sentyabrın 27-dən noyabrın 9-dək 93 mülki şəxs həlak olub, 407 nəfər xəsarət alıb, 3 min 326 ev, 120 çoxmənzilli yaşayış binası və 504 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

– Noyabrın 10-na keçən gecə Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə Bəyanat imzalayıblar. Bununla bağlı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciət edib.

# Andına sadiq qəhrəman



Qapı açılır, içəri daxil oluram. Vətənə əmanət 2 qız övladı – Lalə və İnci ilə qarşılaşır baxışlarımız. Bu gözlərdə nələr var, İlahi! Altı illik ata həsrəti? Yox, daha çox qürur var. "Mən fəxr edirəm ki, şəhid qızıyam", – deyir mənə bu baxışlar. Ulu Öndərin ***"Mən fəxr edirəm ki, azərbaycanlıyam"*** kəlamını xatırladır mənə. Bəli, bu kiçik qızların atası da məhz həmin hisslərlə hərb sənətini seçmişdi. Dahi rəhbərin arzusunu yerinə yetirməyə söz vermişdi. Onun adını daşıyan hərbi liseyə qəbul olunanda. Sonra təhsilini davam etdirib hərbi formanı daşıyan hər bir oğul kimi Vətənin bütövlüyü uğrunda canını əsirgəməyəcəyinə and içmişdi. Zabit mundirini çiynində daşımağa başladığı gündən gecəsi-gündüzü yox idi onun da. Hər an Ali Baş Komandanın "İrəli!" əmrinə hazır idi. Söhbət Naxçıvanın qəhrəman oğullarından biri, Vətən müharibəsi şəhidi, mayor Sadiq Həsənovdan gedir.

Həyat yoldaşı onu xatırladıqca yollara dikilən baxışlarındakı əbədi sükut dil açır sanki: "Onun seçdiyi sənətə xüsusi sevgisi var idi. Xidməti müqəddəs bilirdi, verilən bütün tapşırıqların öhdəsindən layiqincə gəlirdi. Onun da ən böyük arzusu səngərin o tayında qalan əsir torpaqların azad olunması idi. Aprel döyüşlərində Goranboy rayonunun Ağcakənd qəsəbəsində yerləşən "N" hərbi hissədə xidmət edirdi. Həmin günlərdə qazanılan qələbə hər bir hərbçi kimi onun da sevincinə səbəb olmuşdu. Vətən müharibəsi başlayan gündən döyüş meydanında idi. Oktyabrın 18-nə kimi telefonla əlaqə saxlaya bilirdik. Torpaqlarımızın işğaldan azad edilməsi xəbərini verəndə səsindəki qüruru duymaq məni də sevindirirdi. Son danışığımızda Qubadlı uğrunda döyüşlərin başladığını dedi. 23 gün Füzuli, Cəbrayıl, Xocavənd və Qubadlı istiqamətlərində döyüşür. Oktyabrın 20-də Qubadlının Balasoltanlı kəndində öz əsgərini mənfur düşmən mərmisindən qorumaq üçün özünü onun üzərinə atdı. Beləcə, komandirlik məsuliyyətini ən ali fədakarlıq nümunəsinə çevirdi və şəhidlik zirvəsinə ucaldı. Mayor Sadiq Həsənov son nəfəsinədək Vətənə sədaqət andına sadiq qaldı".

Sona xanım onu da qeyd edir ki, həyat yoldaşı xidməti dövründə müxtəlif medallarla təltif edilib. Vətən müharibəsində göstərdiyi igidliyə görə isə "Rəşadət" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", "Qubadlının azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub. Şəhid xanımı minnətdarlıq hissi ilə bildirir ki, ailəsi dövlət qayğısı ilə əhatə olunub, bu ilin avqustunda mənzillə təmin edilib.

2020-ci ilin 24 oktyabrında qədim Naxçıvan torpağı 12 igid oğlunu bağrına basdı. Torpaq ana qəhrəman oğullarını bağrına basıb, onları dünyaya gətirən analardan halallıq istəyəndə şəhid məzarı başında qürurla dayandı məğrur Azərbaycan qadını. On bir ana öz can parçasını torpağa əmanət edəndə Şövkət ananın ruhu qollarını açıb Sadiqini bağrına basdı. Vətənə sadiq olan övladının alnından öpüb "Südüm sənə halal olsun, kürəyindən vurulmadın", – dedi.

Bu gün Həsənovların ocağında iki qız övladı Vətən sevgisi ilə, fəxr hissi ilə böyüyür. Azad, bütöv Azərbaycanın başı dik övladı kimi gələcəyə addım atırlar. Atalarının qanı, canı bahasına ucalan bayrağı qürurla izləyərək, onu hər an yanlarında hiss edərək. Çünki onlar üçün ata yalnız xatirələrdə yaşayan doğma insan deyil, həm də Vətənə sədaqətin, mərdliyin və qəhrəmanlığın canlı nümunəsidir.

# Müqəddəs amal uğrunda

Haqq mübarizəmiz başlayan gündən hər kəsin amalı bir idi: torpaqlarımızın hər qarışını azad etmək və Şuşaya çatmaq. Ordumuzun hər bir əsgəri və zabiti bu yolda canından keçməyə hazır idi. Ali Baş Komandanın ***"Şuşasız işimiz yarımçıq qalar"*** fikri, şəhid analarının "Torpağımızın hər qarışı azad olunana kimi müharibəni dayandırmayın" çağırışı Vətən uğrunda döyüşən igidlərə güc, mübarizə əzmi verirdi. Qədim Naxçıvanın özü qədər ulu olan Culfa rayonunun Bənəniyar kəndində dünyaya göz açan, ömrünün 24 ilini Vətənin müdafiəsinə həsr edən Malik Cəbiyev də həmin igidlərdəndir. Xüsusi təyinatlı bölüyün baş çavuşu ilə söhbətimiz Şuşanın azadlığı uğrunda gedən döyüşlər, o günlərin unudulmaz xatirələri barədədir.

"Vətən müharibəsi başlayanda hər kəs kimi mənim də ürəyim cəbhədə döyünürdü. Döyüşə getməyə, şəhid komandirim, general Polad Həşimovun qisasını almağa, torpaqlarımızı azad etməyə can atırdım. 2020-ci il oktyabrın 17-də Naxçıvandan Bakıya yola düşdük. Ayın 18-də Füzuli rayonunun Dünyamalılar kəndinə çatdıq və döyüş tapşırıqlarını yerinə yetirmək üçün hazırlıqlara başladıq.

Qırmızıqaya kəndini düşməndən təmizlədik. Sonrakı döyüşlərdə irəliləyərək Tuğ kəndini, Azak yaşayış məntəqəsini və adsız yüksəklikləri azad etdik, təminat və təxliyə yollarına nəzarəti ələ aldıq. Köç yaşayış məntəqəsi istiqamətində hərəkət edərək kəndi düşməndən təmizlədik. Uğurlu əməliyyatlar nəticəsində Martuni-Qırmızı Bazar istiqamətindəki təminat yollarını da nəzarətə götürdük.

Çanaqçı meşəsindən Şuşa istiqamətində hərəkətə başladıq. Daşaltı kəndinin üstündəki adsız yüksəklikdə möhkəmlənərək istehkam qurduq. İrəliləməyimizi davam etdirib Topxana meşəsinə çatdıq. Laçın dəhlizini nəzarətə götürdükdən sonra bu istiqamətdəki adsız yüksəkliklərdə yerləşən düşmən qüvvələrini mövqelərindən uzaqlaşdırdıq. Səhərə yaxın Xankəndi-Şuşa istiqamətində hücuma keçərək Şuşa-Xankəndi yolunu nəzarətə götürdük. Bu əməliyyat zamanı Kəngərli rayonunun Böyükdüz kəndindən olan İsmayıl Yüzbaşıyev şəhidlik zirvəsinə ucaldı. Noyabrın 5-də gecə saat $03^{00}$ radələrində Şuşa şəhərinə hücum başladı. Şuşa həbsxanasının yaxınlığında düşmənin pusqusuna düşdük. Döyüş yoldaşlarımız yaralandı, kiçik gizir Samir Mehdiyev şəhid oldu. Buna baxmayaraq, pusqudan çıxaraq Şuşa qalası istiqamətində hücumumuzu davam etdirdik".

Müsahibim Şuşanın azadlığı uğrunda döyüşlərin ən gərgin anlarından, yaralı silahdaşlarının xilas edilməsindən də danışır:

"Noyabrın 6-da bir qrupla pusquya düşdüyümüz yerdə qalan şəhid və yaralılarımızın ardınca getdik. Həmin vaxt Şuşa həbsxanası tərəfdən bir nəfərin bizə doğru gəldiyini gördük. Onun düşmən olduğunu düşünüb mövqe tutduq. Yaxınlaşanda gördük ki, döyüş yoldaşımız Sənan Kərimovdur. Gəlib məni qucaqladı və "Cəbi, sən mənə bir dünya verdin", – dedi.

Döyüşlərdə yaralanmış altı yoldaşımızı oradan çıxarmaq üçün yaxınlıqda dayanan, ehtimal ki, düşmən polis qüvvələrinə məxsus olan avtomobili işə saldım. Yaralıları həmin avtomobillə təxliyə etdik. Tanklar sağa-sola, qarşılarına çıxan hər tərəfə atəş açırdılar. Buna baxmayaraq, elə bil Tanrı bizə qanad vermişdi. Heç vaxt keçmədiyim Şuşa küçələrində avtomobil idarə edirdim. Şuşa hamamının qarşısından keçərkən daha iki yaralını götürdük. Şəhid və yaralıları Şuşa məktəbinə yerləşdirdik, yaralılara ilkin tibbi yardım göstərildi.



Noyabrın 7-də Şuşada son təmizləmə işləri aparıldı. Tutduğumuz mövqelərdə möhkəmləndik. Şuşa Şəhər İcra Hakimiyyətinin binasının üzərindəki düşmən bayrağını endirib şəhidlərimizin qanı bahasına qazanılan Zəfərin rəmzi olan üçrəngli bayrağımızı ucaltdıq".

Müsahibim deyir ki, bütün Azərbaycan xalqı və Ordusu illərdir, bu günü səbirsizliklə gözləyirdi. Tanrı onlara Vətənin azadlığı kimi müqəddəs missiyanı yerinə yetirmək üçün güc vermişdi.

"Həmin gün əsgərlərimizdən biri şəhərin mərkəzində yerləşən məscidin minarəsinə qalxaraq azan oxudu. Düşmənin yararsız vəziyyətə saldığı məscidə daxil olanda sanki daşlar da dilə gəlib onu azad edən oğullara təşəkkür edirdi. Döyüş yoldaşlarımla birlikdə məscidi təmizlədik, orada Tanrıya əl açaraq torpaqlarımızı azad etmək üçün bizə güc verdiyinə görə şükür etdik".

Ömrünün 24 ilini Vətənin müdafiəsinə həsr edən gizir Malik Cəbiyev "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif olunub.

Onun döyüş yolu bir daha göstərir ki, Vətən sevgisi yalnız sözlə ifadə olunan duyğu deyil, ən çətin sınaqlarda belə insanı ayaqda saxlayan, onu müqəddəs amal uğrunda mübarizəyə səfərbər edən mənəvi qüvvədir. Malik Cəbiyev və onun silahdaşları üçün Şuşaya gedən yol təkcə hərbi əməliyyatların marşrutu deyildi. Bu yol illərlə qəlblərdə yaşadılan bir arzunun, şəhidlərin qanı ilə yazılan bir andın və nəhayət, bütöv bir xalqın Zəfər iradəsinin təcəssümü idi.

**Ramiyə ƏKBƏROVA**

# Vətənin daşını, ruhunu və azadlığını inşa edən şəhid memarlar

Hər daşın yaddaşında bir zaman yatır. Hər ucaldılan divar susaraq bir tarix danışır, hər abidə isə onu yaradan insanın düşüncəsini gələcəyə ötürür. Memar bu səssiz dili oxuya bilən sənətkardır. O yalnız məkan qurmur, insanın yaşayacağı mühiti, şəhərin simasını, gələcəyin görünüşünü də təsəvvür edir. Hər daşın, hər divarın, hər memarlıq abidəsinin bir ruhu var. Bu ruhu hiss edən, daşlara can verən insan memardır. O yalnız binanı deyil, zamanı da ucaldır.

Memarlıq ilk baxışda daşın, kərpicin və xətlərin sənəti kimi görünə bilər. Lakin onun görünməyən tərəfi daha böyükdür. Memarlıq xalqın yaddaşını məkanın yaddaşına çevirir. Bir şəhərin küçəsində, bir kəndin evində, bir məscidin günbəzində, bir məktəbin pəncərəsində həmin xalqın dünyaya baxışı yaşayır. Bu baxımdan, memarlıq həm də xalqın ruhunu daşıyan, zamanın səsinə çevrilən əbədi yaddaşdır.

Azərbaycan memarlıq məktəbi əsrlər boyu bu torpağın ruhunu, tarixini və kimliyini yaşadan dəyərli sənətkarlar yetişdirib. Lakin bu məktəb elə gənclər də yetişdirib ki, onlar çəkdikləri planları həyata keçirməyə, arzuladıqları binaları ucaltmağa macal tapmadan Vətən adlı ən uca abidənin memarlarına çevriliblər. Ramil



Ağayev, Eltac Əlizadə kimi şəhid memarların həyat yolu yarımçıq qalmış layihəyə bənzəsə də, taleləri bütöv bir dastana çevrilib. Onlar yaşadıqları müddətcə müxtəlif layihələrə imza atıblar. Lakin tarix bəzən insanın qarşısına tamam başqa bir layihə qoyur. Onların qarşısına qoyulan layihənin adı isə Vətən oldu.

Bu qəhrəman igidlər həyatlarının ən gözəl çağında qələmi silahla, layihə cızdıqları masanı cəbhə xətti ilə əvəz etdilər. Universitet partasında eskiz çəkən, xəyalında doğma torpağın gələcəyini inşa edən bu gənclər döyüş meydanında əllərində xətkeş və karandaş deyil, silah tutdular. Eskiz kağızı üzərində qurulan xəyalların yerini Vətən torpağının müdafiəsi tutdu.

Onlar üçün bu, peşədən imtina deyildi. Əksinə, memarlığın ən ali mənasının başqa bir müstəvidə davamı idi. Çünki Vətənin daşı yurdun ruhu qədər müqəddəsdir. Torpaq azad deyilsə, onun üzərində ucalan heç bir bina da, həqiqi mənada, tamamlanmış sayıla bilməz. Buna görə də onlar memarlıq sənətini səngərdə qəhrəmanlığa çevirdilər. Qələmlə qurmaq istədikləri gələcəyi silahla qorudular.

Bu gənclər layihələrində milliliyi, qədim abidələrin ruhunu yaşatmaq istəyirdilər. Azərbaycanın hər daşının, qayasının altında gizlənmiş tarixə heyran idilər. Vətən sevgisi onların yaradıcılıq istedadı ilə iç-içə idi. Bəlkə də, taleləri elə buna görə belə gətirdi ki, daşı tanıyan və qoruyan insanlar torpağı da qorumağa qalxdılar.

Şəhid memarların çəkə bilmədiyi layihələr, tamamlaya bilmədiyi eskizlər, həyata keçirə bilmədiyi ideyalar vardı. Amma yarımçıq qalan layihələrin fövqündə tamamlanan bir amal dayanırdı. Onlar öz həyatlarını Vətənin bütövlüyünə həsr etdilər.

Beləcə, memarlıq təhsili almış bu gənclərin taleyində "qurmaq" anlayışı tamam başqa məna qazandı. Onlar artıq yalnız bina deyil, azad gələcək üçün dayaq qururdular. Bəlkə də, memarlığın ən böyük paradokslarından biri budur: memar gələcəkdə yaşayacaq insan üçün bu gün məkan yaradır. Şəhid memarlar isə gələcək nəsillərin azad yaşaması üçün öz həyatlarından keçdilər.

Şəhid memarların hər birinin xəyalında başqa bir şəhər, başqa bir küçə, başqa bir bina ola bilərdi. Kimisi qədim abidələrin sirrini öyrənmək, kimisi müasir şəhərin simasını dəyişmək, kimisi yeni yaşayış məkanları yaratmaq istəyirdi. Lakin onların bütün arzularının fövqündə dəyişməyən bir məkan vardı – azad Azərbaycan.

Bu gün onların ruhu yenidən qurulan Qarabağda, dirçələn şəhərlərdə yaşayır. Hər yeni təməl qoyulanda sanki yarımçıq qalmış bir arzunun üstünə yeni bir cümlə yazılır. Hər yeni bina yüksəldikcə vaxtilə bu torpaqların gələcəyini xəyal edən gənclərin arzularına bir addım da yaxınlaşılır.

Azad edilmiş ərazilərdə tikilən məktəblər, məscidlər, muzeylər, mədəniyyət mərkəzləri onların arzularının da davamıdır. Onların xəyal etdiyi azad Azərbaycan artıq reallığa çevrilir. Bu yalnız bərpa və quruculuq prosesi deyil, həm də şəhidlərin ruhuna göstərilən ehtiramın ifadəsidir. Hər daş qoyduqca, hər bina ucaltdıqca, hər şəhəri yenidən qurduqca onları xatırlayırıq.

Bu gün şəhid memarların adları universitetlərin xatirə guşələrində, fakültə divarlarında, müəllimlərin və tələbələrin yaddaşında yaşayır. Gənc memarlar onların şəkillərinə baxıb anlayırlar ki, memarlıq yalnız gözəl bina yaratmaq bacarığı deyil. Bu peşənin arxasında məsuliyyət, vətəndaşlıq və mənəvi mövqe də dayanır.

Bizim vəzifəmiz isə şəhid memarların qəhrəmanlıqlarının yazıldığı səhifələri unutdurmamaqdır. Onların xatirəsini yaşatmaq yalnız adlarını çəkməkdən ibarət deyil. Onların arzuladığı qurucu, yaradıcı və milli memarlıq düşüncəsini davam etdirmək, Vətənin şəhərlərini və kəndlərini daha gözəl, daha mənalı və daha yaşanılan məkanlara çevirmək də həmin xatirəyə ehtiramın bir formasıdır.

Şəhid memarların xatirəsi, sadəcə, keçmişə aid bir yadigar deyil. O, gələcəyə baxan bir pəncərədir. Həmin pəncərədən baxanda görünən Azərbaycan onların yarımçıq qalmış arzularının deyil, davam edən əməllərinin ölkəsidir. Çünki bəzi memarlar öz yaşamlarında əlləri ilə bina tikə bilmədilər, amma şəhadətləri ilə gələcəyin təməlini qoydular.

Şəhid memarlar Vətənin daşını qorudular, onun ruhunu yaşatdılar və azadlığının memarlarına çevrildilər.

**Brilyant CƏFƏRLİ**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı***

# Üç rəngin yaddaşı, aypara və ulduzun işığında

***Bəzi rəmzlər var ki, onların mənası sözlərə, ölçülərə, hətta zamanın sərhədlərinə sığmır. Onlar bir xalqın tarixini, taleyini, yaddaşını və gələcəyə olan inamını özündə yaşadır. Bayraq da belə müqəddəs rəmzlərdəndir. Ona baxanda yalnız üç rəngin ahəngini deyil, bir millətin keçdiyi yolu, yaşadığı ağrıları, qazandığı qələbələri, azadlıq və müstəqillik uğrunda mübarizəsini görürük.***

***Üçrəngli bayrağımız bizim üçün sadəcə, dövlət atributu deyil. O, milli kimliyimizin, mənsubiyyətimizin, qürurumuzun və Vətənə bağlılığımızın ifadəsidir. Onun mavi, qırmızı və yaşıl rəngləri, aypara və səkkizguşəli ulduzu tariximizin müxtəlif qatlarından süzülüb gələn mənaları bir bütövə çevirir. Bu bayraq yüksəldikcə sanki xalqımızın əsrlər boyu qoruduğu istiqlal arzusu da onunla birlikdə göylərə ucalır.***

Üçrəngli bayrağımızın hekayəsi əsrlərin dərinliyindən süzülüb gələn böyük bir istiqlal eşqinin, milli kimliyimizin və dövlətçilik iradəmizin canlı salnaməsidir. Onun göylərdə dalğalanan üç rəngi təsadüfən bir araya gəlməyib. Hər biri xalqımızın şanlı keçmişindən, milli dəyərlərindən, yurd sevgisindən və gələcəyə baxışından boy atıb.

1918-ci ilin mürəkkəb, lakin böyük ümidlərlə dolu günlərində Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları əsarət zəncirlərini qıraraq bu torpağın sabahını, milli kimliyini və mənəvi ucalığını dövlət rəmzində əbədiləşdirməyə çalışırdılar. İlk olaraq qırmızı fonda aypara və səkkizguşəli ulduzdan ibarət bayraq qəbul edilmişdi. Lakin xalqın ruhundakı böyük istiqlal coşqusu daha dolğun ifadəsini tapmalı idi. Nəhayət, 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə bu gün qürurla, nəfəsimiz qədər yaxın bilib sinəmizə sıxdığımız üçrəngli bayrağımız Dövlət Bayrağı kimi təsdiq olundu.

O bayrağın hər rəngi bir dastandır. Səmanın sonsuzluğu qədər dərin mavi rəng türkçülük ideyasını, xalqımızın türk mənşəyini və milli kimliyini ifadə edir. Azadlıq, tərəqqi və müasir inkişaf arzularını, demokratik dövlət quruculuğu ideallarını isə qırmızı rəng təcəssüm etdirir. Ruhumuzu bürüyən İslam sivilizasiyasına, mənəvi dəyərlərimizə və inancımıza bağlılığımız yaşıl rəngdə öz əksini tapır.

Beləcə üç rəng bir bayraqda, bir millətin kimliyi isə üç rəngdə öz əksini tapdı. Göy üzünü xatırladan mavi, alov kimi yanan qırmızı, təbiətin nəfəsini yaşadan yaşıl… Bu rənglərə baxanda insan yalnız bir dövlət rəmzini deyil, keçmişindən güc alan, bu gününü quran və sabaha inamla baxan bir xalqı görür. Ancaq tarixdə bayraqların susmağa məcbur edildiyi zamanlar da olub. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə üçrəngli bayrağımız rəsmi dövlət rəmzi kimi dalğalanmaqdan məhrum edildi. Onu parlament binasının üzərindən endirmək mümkün oldu, amma xalqın yaddaşından silmək yox. Çünki bir dəfə ürəklərdə yer alan rəmzin ömrünü heç bir siyasi dəyişikliklə bitirmək olmur. Bayraq o illərdə də yaşayırdı – xatirələrdə, arzuların dərinliyində, müstəqil Azərbaycan düşüncəsində…

İllər sonra bu yaddaşın yenidən oyanışında Naxçıvanın xüsusi yeri oldu. 1990-cı il noyabrın 17-də Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında üçrəngli bayrağımız yenidən qaldırıldı və onun Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi üçün vəsatət qaldırıldı. Bu hadisə, sadəcə, bir bayrağın yenidən ucaldılması deyildi. Bu, unudulmağa qoyulmayan tarixə sahib çıxmaq, müstəqilliyə inamı qorumaq, milli yaddaşı dövlətçilik müstəvisinə qaytarmaq idi. 1991-ci il fevralın 5-də isə üçrəngli bayrağımız Azərbaycan Respublikasının Dövlət Bayrağı kimi təsdiq edildi.

O gündən bəri bayrağımız yenidən öz səmasında dalğalanır. Xüsusilə torpaqlarımızın azadlığı uğrunda aparılan mübarizədən sonra üçrəngli bayrağımızın Qarabağda və Şərqi Zəngəzurda dalğalanması onun tarixində yeni, qürurlu səhifə açdı. Bir zamanlar həsrətlə baxdığımız doğma torpaqlarda indi bayrağımızın kölgəsi var. Bu mənzərənin doğurduğu sevinc və qüruru sözlə ifadə etmək heç də asan deyil.

Bakıda Dövlət Bayrağı Meydanında dalğalanan nəhəng bayrağımızın 2025-ci ildə Ginnesin Rekordlar Kitabına dünyanın ən böyük dalğalandırılan bayrağı kimi daxil edilməsi diqqətçəkən hadisə oldu. Amma bayrağımızın əsl böyüklüyünü ölçülərlə ifadə etmək mümkün deyil. Onun böyüklüyü bir əsgərin çiynində daşıdığı məsuliyyətdə, bir idmançının qələbədən sonra onu öpərək bağrına basmasında, bir uşağın məktəbdə bayrağa baxarkən duyduğu qürurda, Vətəndən uzaqda yaşayan soydaşlarımızın üçrəngli bayrağı görəndə doğma torpağı xatırlamasındadır.

2009-cu ildə imzalanan Sərəncamla noyabrın 9-u Dövlət Bayrağı Günü elan edildi. Həmin gündən bu tarix yalnız təqvimdə qeyd olunan bir gün deyil, milli yaddaşımıza, dövlətçiliyimizə və müstəqilliyimizə ehtiramın ifadəsidir.

Bu gün üçrəngli bayrağımıza baxanda aypara və səkkizguşəli ulduz rənglərin üzərində bir tarix nişanı kimi parlayır. Zaman dəyişsə də, nəsillər yenilənsə də, bu bayrağın ifadə etdiyi mənsubiyyət hissi dəyişməyəcək. Çünki bayrağı yaşadan yalnız onun dalğalandığı direklər deyil, onu qəlbində daşıyan insanlardır. Və nə qədər ki bu bayrağı yüksəltmək istəyən ürəklər var, onun dalğalandığı səma da daim bizim olacaq. Hər bir azərbaycanlıya da eyni ünvanı xatırladacaq – Vətəni.

**Səmayə RƏHİMQIZI**

## Bayraq

***Torpağım üstünə kölgələr salan***
***Mənim varlığımın cilası – bayraq.***
***Zəfərdən doğulmuş, Göytürkdən qalan***
***Qurdbaşlı bayrağın balası bayraq.***

***Üçrəngli bayrağın kölgəsində mən***
***Qaraca torpağı vətən görmüşəm.***
***Zəfər güllərini dövri-qədimdən***
***Bayraq işığında bitən görmüşəm.***
***Bayraq mənliyimdir, bayraq kimliyim,***
***Bayraq – öz yurduma öz hakimliyim.***

***Harda əcdadımın ayaq izi var,***
***Bu zəfər bayrağım orda dikəlsin.***
***Keçdiyi yerlərdə dağlar, yamaclar***
***Onun hüzuruna salama gəlsin.***

***Tarixdən qədimdir, zamandan qoca***
***Mənim bayrağıma sancılan hilal.***
***Aləmə nur saçdı tarix boyunca***
***Məbədlər başıma tac olan hilal.***

***Daim ucalasan! Savaş günündə***
***Əsgər silahıyla səni tən görüm.***
***Yalnız zəfər çalmış şəhid önündə***
***Səni alqış üçün əyilən görüm.***

**Bəxtiyar VAHABZADƏ**
*Xalq şairi*



# İQTİSADİYYAT

## Artan investisiya məşğulluğa çevrilir

*İqtisadi inkişafın keyfiyyətini müəyyən edən başlıca amillərdən biri investisiya resurslarının hansı istiqamətlərə yönəldilməsi və onların nə dərəcədə səmərəli istifadə olunmasıdır. İnvestisiya fəallığının artması yalnız cari iqtisadi dinamikanı deyil, həm də gələcək inkişaf imkanlarını qiymətləndirmək üçün əsas yaradır.*



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin məlumatlarına əsasən muxtar respublikada əsas kapitala qoyulan vəsait bir ildə, təxminən, 65 milyon manat artaraq 238,2 milyon manata çatıb. Bu vəsaitin 83,3 faizinin tikinti-quraşdırma işlərinə sərf olunması investisiyanın real obyektlərə çevrildiyini göstərir.

Bu gün qoyulan hər manat sabah istehsal gücü, mənzil və infrastruktur kimi geri qayıdır. İnvestisiyaların mənbəyinə baxanda dövlətlə sahibkar arasında yaranan sağlam tərəfdaşlıq aydın görünür. Dövlətin qoyduğu hər 1 manata özəl sektordan, təxminən, 1 manat 36 qəpik əlavə olunub. Deməli, özəl kapital dövlət vəsaitindən daha sürətli böyüyür. Dövlət yolu açır, sahibkar isə həmin yolla getməyə hazır olduğunu öz vəsaiti ilə sübut edir. Biznesin öz pulunu riskə qoyması bölgənin iqtisadi gələcəyinə olan inamın ən etibarlı göstəricisidir. Sərf olunan hər 10 manatın, təxminən, 5-i istehsala, 4-ü mənzil tikintisinə, 1-i xidmət sahələrinə yönəldilib. İstehsala yönəldilən 116,4 milyon manat sabahın məhsulu, ixracı və daimi iş yerləri deməkdir. Mənzil tikintisinə ayrılan 94,7 milyon manat isə yüzlərlə ailə üçün yeni ev, rahat yaşayış şəraiti deməkdir. Bu tikintilər yerli tikinti materialları istehsalına, nəqliyyata, ticarətə də əlavə sifariş yaradır. Xidmət sahələrinə ayrılan 27 milyon manatlıq pay isə turizm, logistika və müasir xidmətlər üçün böyük potensialın hələ qarşıda olduğunu göstərir. Beləliklə, investisiya siyasəti iqtisadi gücün artırılması və insanların həyat keyfiyyətinin yaxşılaşması kimi iki məqsədə eyni anda xidmət edir. Bu gün qoyulan investisiyalar sabahın inkişafına hazırlanan möhkəm təməldir.

İnşa edilən istehsal müəssisələri, enerji və su infrastrukturu, yeni yaşayış binaları yaxın illərdə daha geniş istehsal imkanları və daha çox daimi iş yeri deməkdir. Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 12 avqust tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi üçün nəzərdə tutulan əlavə tədbirlər, o cümlədən Naxçıvan Sənaye Parkı və sosial mənzil layihələri tikintidən istehsala keçidin əsasını qoyur.

İnvestisiyaların əsl dəyəri təkcə tikilən binaların və quraşdırılan avadanlıqların sayı ilə ölçülmür. Hər bir iqtisadi layihənin son məqsədi insan olduğu üçün qoyulan vəsaitin cəmiyyətə qaytardığı ən mühüm nəticə də məşğulluq sayılır. İnvestisiyanın ötən ilin eyni dövrünə nisbətən 37,4 faiz, yeni iş yerlərinin sayının 59 faiz artması kapitalın daha çox insanı əmək tutumlu sahələrə yönəltdiyini göstərir. İş yerlərinin, təxminən, 85 faizi yeni fəaliyyətə başlayan müəssisələrdə yaranıb. Bu o deməkdir ki, orta hesabla hər yeni müəssisəyə 7 iş yeri düşüb. Yeni iş yeri bir ailə üçün sabit aylıq gəlir, sosial sığorta stajı, gələcək pensiya hüququ deməkdir. Məşğulluq rəqəmlərinə diqqətlə baxanda maraqlı bir məqam üzə çıxır. Özəl sektor investisiyaların 58, yeni iş yerlərinin 69 faizini təmin edib. Deməli, sahibkarın qoyduğu hər manat dövlət vəsaitinə nisbətən daha çox insanın məşğulluğunu yaradıb. Bu isə səmərəliliyin ən sadə və ən inandırıcı ölçüsüdür. Qeyri-dövlət sektorunda açılan iş yerlərinin sayının dövlət sektorundakından 2,3 dəfə çox olması da dövlətin sahibkarlığa göstərdiyi dəstəyin artıq öz bəhrəsini verdiyinin göstəricisidir. Bəzi layihələrin töhfəsi isə xüsusilə nəzərə çarpır.

"Naxçıvan Avtomobil Yollarının Yaşıllaşdırılması" Məhdud Məsuliyyətli Cəmiyyətində və yeni fəaliyyətə başlayan Naxçıvan Regional Dost Mərkəzində birlikdə 266 iş yeri yaranıb. Bu onu göstərir ki, sosial və ekoloji layihələr şəhərin görkəmini dəyişməklə yüzlərlə insanın məşğulluğunun təmin olunması ilə nəticələnir. Özünüməşğulluq proqramı vasitəsilə aktiv alan 114 nəfərin, təxminən, hər 10 nəfərindən 8-i kənd təsərrüfatını seçib. Bu yolla aztəminatlı ailə istehlakçıdan istehsalçıya çevrilir, kənd isə yeni təsərrüfatlarla canlanır. Deməli, bu gün tikilən hər obyekt sabahın istehsalı, açılan hər iş yeri isə bir ailənin rifahı deməkdir. Doqquz ayın nəticələri göstərir ki, Naxçıvanda investisiya ilə məşğulluq bir-birini tamamlayan, insanı mərkəzə qoyan vahid inkişaf modelinə çevrilib.

**Mehriban İMANOVA**
***Naxçıvan Dövlət Universitetinin dosenti, iqtisad üzrə fəlsəfə doktoru***




## İnvestisiya resurslarının artması Naxçıvan üçün yeni perspektivlər yaradır



Naxçıvan Muxtar Respublikasında 2026-cı ilin yanvar-sentyabr aylarının nəticələri regional iqtisadiyyatda investisiya fəallığının nəzərəçarpacaq dərəcədə yüksəldiyini göstərir. Rəsmi statistik məlumatlara əsasən qeyd edilən dövrdə əsas kapitala yönəldilən investisiyaların həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 37,4 faiz artaraq 238,2 milyon manata çatıb. Tikinti-quraşdırma işlərinə sərf olunan vəsaitlərin 41,9 faiz artması isə kapital qoyuluşlarının əhəmiyyətli hissəsinin yeni obyektlərin inşasına və mövcud infrastrukturun inkişafına istiqamətləndiyini göstərir. Mövcud mənzərədə xüsusi diqqətçəkən məqamlardan biri investisiya qoyuluşlarının maliyyələşmə strukturunda qeyri-dövlət sektorunun üstün olmasıdır. Belə ki, ümumi investisiyaların 57,7 faizi qeyri-dövlət sektorunun payına düşüb. Bununla yanaşı, sözügedən sektorda investisiya həcminin 42,3 faiz artması dövlət sektorunda qeydə alınan 30,9 faizlik artım tempini üstələyib. Bu tendensiya iqtisadi fəallığın təmin olunmasında sahibkarlıq təşəbbüslərinin və investisiya mənbələrinin şaxələndirilməsi baxımından da müsbət qiymətləndirilə bilər.

İnvestisiyaların sahələr üzrə bölgüsü də iqtisadi baxımdan maraqlı məqamları üzə çıxarır. Ümumi kapital qoyuluşlarının 48,9 faizinin məhsul istehsalı sahələrinə yönəldilməsi, öz növbəsində, regional iqtisadiyyatın şaxələndirilməsi və idxaldan asılılığın azaldılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Naxçıvanın mövcud coğrafi-iqtisadi xüsusiyyətləri fonunda istehsal təyinatlı investisiyaların, xüsusilə emal sənayesinə, aqrar istehsala, logistika və ixracyönümlü fəaliyyət sahələrinə cəlb olunması uzunmüddətli inkişaf baxımından vacib hesab olunur. Digər tərəfdən, enerji təsərrüfatının modernləşdirilməsi, su təminatı və nəqliyyat infrastrukturunun inkişafı üçün kapital qoyuluşları iqtisadiyyatın fərqli sahələri arasında əlaqələrin güclənməsinə xidmət edə bilər. Belə investisiyalar infrastrukturu yeniləməklə bərabər, sahibkarlıq subyektlərinin əməliyyat xərclərinin optimallaşdırılması, iqtisadi resurslardan səmərəli istifadə və yeni biznes təşəbbüslərinin təşviqi üçün əlverişli zəmin formalaşdırır.

Bununla belə investisiya fəallığının yüksəlməsi ilə onun iqtisadi səmərəliliyinin artmasını eyniləşdirmək düzgün olmaz. İqtisadi baxımdan əsas məsələ qoyulan kapitalın hansı real nəticələr yaratmasıdır. Başqa sözlə, investisiyaların uzunmüddətli təsiri yeni istehsal güclərinin yaradılması, məşğulluğun genişlənməsi və əmək məhsuldarlığının artması iqtisadiyyatda əlavə dəyərin artması ilə qiymətləndirilməlidir.

Naxçıvanda investisiya fəallığının artması yalnız kapital qoyuluşlarının kəmiyyət baxımından genişlənməsi kimi deyil, həm də iqtisadiyyatın gələcək inkişaf imkanları kontekstində də qiymətləndirilməlidir. Belə ki, infrastruktur layihələrinə qoyulan sərmayələr multiplikator təsiri vasitəsilə əlaqəli sahələrdə iqtisadi fəallığı stimullaşdıra, istehsal və xidmət imkanlarını genişləndirə bilər. Digər tərəfdən, dövlətin yaratdığı infrastruktur imkanlarının özəl investisiya fəallığını stimullaşdırması xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan, əsas məqsəd investisiya artımını davam etdirməklə yanaşı, qoyulan kapitalın iqtisadi nəticəliliyini və əlavə dəyər yaratmaq potensialını gücləndirmək olmalıdır.

Yeni iş yerlərinin yaradılması iqtisadi inkişafın mühüm sosial göstəricilərindəndir. Bununla belə məşğulluğun artımı yalnız kəmiyyət baxımından deyil, iş yerlərinin sahəvi bölgüsü, dayanıqlılığı və iqtisadi məhsuldarlığa töhfəsi əsasında qiymətləndirilməlidir.

Bu baxımdan, Naxçıvan Muxtar Respublikasında 2026-cı ilin yanvar-sentyabr aylarında yeni yaradılan iş yerlərinin ötən ilin müvafiq dövrü ilə müqayisədə 59 faiz artması regional əmək bazarında müsbət dinamikanı nümayiş etdirir. Xüsusilə yeni iş yerlərinin 69 faizinin qeyri-dövlət sektorunda formalaşması sahibkarlıq fəaliyyətinin məşğulluğun genişlənməsində mühüm rol oynadığını göstərir. Özəl sektorda yaradılan iş yerlərinin dövlət sektorunu 2,3 dəfə üstələməsi isə əmək bazarında özəl sektorun iştirakının əhəmiyyətini daha aydın ifadə edir. Digər diqqətçəkən məsələ yeni iş yerlərinin, təxminən, 85 faizinin fəaliyyətə başlayan 117 müəssisə və təşkilatların payına düşməsidir. Mövcud 31 müəssisədə isə 152 əlavə iş yeri açılıb. Bu onu göstərir ki, məşğulluq artımı, əsasən, yeni iqtisadi subyektlərin fəaliyyətə başlaması hesabına baş verib.

Digər mühüm istiqamət özünüməşğulluğun təşviqidir. 114 işsiz şəxsin 94 nəfərinin kənd təsərrüfatına, 20 nəfərinin isə istehsal-xidmət sahələrinə istiqamətləndirilməsi xüsusilə regionlarda gəlir imkanlarının genişləndirilməsi baxımından əhəmiyyətli hesab oluna bilər.

Ümumilikdə, muxtar respublikada məşğulluğun genişlənməsi üçün müsbət iqtisadi zəminin formalaşdığını deyə bilərik.


**Eltun İBRAHİMOV**
***Naxçıvan Dövlət Universitetinin dosenti, iqtisad üzrə fəlsəfə doktoru***



# Xarici ticarətdə artım Naxçıvan iqtisadiyyatı üçün yeni perspektivlər vəd edir

İqtisadiyyatın inkişafında xarici ticarətin genişlənməsi iqtisadi fəallığın mühüm göstəricilərindən biridir. Xarici ticarət yerli istehsalın xarici bazarlara çıxış imkanlarının genişlənməsi, məhsul keyfiyyətinin yüksəldilməsi, müəssisələrin rəqabət qabiliyyətinin artırılması və sahibkarların daha geniş biznes əlaqələrinə qoşulması baxımından mühüm əhəmiyyət daşıyır. Bu baxımdan, cari ildə Naxçıvanda xarici ticarət dövriyyəsinin artması regionun istehsal və istehlak potensialının xarici bazarlarla qarşılıqlı əlaqələrinin güclənməsi kimi qiymətləndirilə bilər.

Bu mənzərəni Naxçıvanda 2026-cı ilin ilk 9 ayında müşahidə olunan xarici ticarət göstəriciləri əsasında da aydın görmək mümkündür. Belə ki, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin rəsmi məlumatına əsasən muxtar respublikanın xarici ticarət dövriyyəsi cari ilin yanvar-sentyabr aylarında 155,7 milyon ABŞ dolları təşkil edib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsinin 67,3 faiz, idxalın 53,9 faiz artması, ixracın həcmində isə 2,8 dəfə yüksəlişin qeydə alınması xarici iqtisadi əlaqələrdə əhəmiyyətli canlanmanın baş verdiyini göstərir. Xüsusilə ixracın daha yüksək artım tempi Naxçıvanda istehsal olunan məhsulların xarici bazarlara çıxarılması imkanlarının genişləndiyini nümayiş etdirən mühüm göstəricidir. İdxalın artması isə bir tərəfdən istehsal və investisiya fəaliyyəti üçün zəruri mallara tələbatın yüksəlməsi, digər tərəfdən daxili bazarın xarici məhsullara olan tələbatı ilə əlaqələndirilə bilər.




İxracın, xüsusilə də qeyri-neft məhsulları üzrə ixracın artırılması ölkəmizdə qarşıya qoyulan əsas iqtisadi vəzifələrdəndir. Bu mənada, Naxçıvanın xarici ticarət əlaqələrinin coğrafiyası da diqqət çəkir. Xarici ticarət dövriyyəsinin 31,7 faizinin Türkiyə, 12,6 faizinin Çin, qalan hissəsinin isə Misir, Birləşmiş Ərəb Əmirlikləri, İran, Gürcüstan, Rusiya və digər ölkələrlə aparılan ticarət əməliyyatlarının payına düşməsi muxtar respublikanın beynəlxalq iqtisadi əlaqələrinin müxtəlif istiqamətləri əhatə etdiyini göstərir.

Qeyd edək ki, bu sahədə qarşıya qoyulan konkret vəzifələr Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda da öz əksini tapıb. Belə ki, Tədbirlər Planının 8.3.3-cü bəndində Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların ixrac coğrafiyasının şaxələndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Bu istiqamətdə aparılan işlərin nəticəsi olaraq hesabat dövründə muxtar respublikada istehsal edilərək ixraca yönəldilən məhsulların 50,2 faizi Birləşmiş Ərəb Əmirliklərinə, 14,5 faizi Gürcüstana, 9,5 faizi Səudiyyə Ərəbistanına, 6,5 faizi Qırğızıstana, hər biri 4,9 faiz olmaqla Yəmən və İrana, 3,9 faizi Keniyaya, 2,7 faizi isə Türkiyəyə ixrac edilib.


Ötən ilin müvafiq dövrü ilə müqayisədə ixrac olunan əsas məhsulların ümumi həcmi 18,1 milyon ABŞ dolları və ya 175,1 faiz artaraq 28,4 milyon ABŞ dollarına çatıb. İxracın həcminin yüksəlməsi, əsasən, duz, kükürd və tikinti materialları, taxıldan hazırlanan məhsullar, mineral yanacaq məhsulları və içkilərin ixracının artması hesabına təmin olunub. Bu göstəricilər Naxçıvanda istehsal olunan məhsulların yeni bazarlara çıxarılması ilə yanaşı, mövcud istehsal sahələrinin xarici tələbatdan faydalanmaq imkanlarının da genişləndiyini göstərir.

İdxal göstəricilərində də artım müşahidə olunub. Hesabat dövründə idxal olunan əsas malların ümumi həcmi ötən ilin müvafiq dövrünə nisbətən 44,6 milyon ABŞ dolları və ya 53,9 faiz artaraq 127,3 milyon ABŞ dolları təşkil edib. İdxaldakı yüksəliş başlıca olaraq istehsal və investisiya təyinatlı mallar, o cümlədən maşın, mexanizm və avadanlıqlar, qara metallar və digər sənaye malları, habelə tütün məmulatları hesabına formalaşıb. Artımın, bütövlükdə, gömrük rüsumlarından azad idxal hesabına baş verməsi, rüsuma cəlb olunan idxalın isə 7,7 faiz azalması idxalın strukturunda müəyyən dəyişikliklərin olduğunu göstərir. Xüsusilə istehsal və investisiya təyinatlı malların idxalında artımın qeydə alınması iqtisadi fəallığın genişlənməsi, yeni istehsal imkanlarının formalaşması və müəssisələrin texniki təminatının gücləndirilməsi baxımından əhəmiyyətlidir.

Ümumilikdə, xarici ticarət göstəricilərində qeydə alınan artım Naxçıvan iqtisadiyyatının xarici bazarlarla əlaqələrinin genişləndiyini, ixrac imkanlarının artdığını və istehsal-investisiya fəallığının güclənməsi üçün yeni imkanların yarandığını göstərir. Bununla belə əldə olunan müsbət dinamikanın davamlı iqtisadi nəticələrə çevrilməsi üçün ixracın yalnız həcminin deyil, məhsul çeşidinin və coğrafiyasının da genişləndirilməsi, yüksək əlavə dəyər yaradan istehsal sahələrinin inkişafı, yerli məhsulların rəqabət qabiliyyətinin artırılması və səmərəli logistika imkanlarının formalaşdırılması mühüm əhəmiyyət daşıyır. Bu istiqamətdə görülən işlərin ardıcıl davam etdirilməsi Naxçıvanda yeni istehsal sahələrinin və iş yerlərinin yaradılmasına, sahibkarlıq fəaliyyətinin genişlənməsinə, eyni zamanda Azərbaycanın ümumi ixrac potensialına muxtar respublikanın töhfəsinin artırılmasına xidmət edəcək.

**Əli CABBAROV**

# Naxçıvan Muxtar Respublikası makroiqtisadi inkişafı ilə ölkənin milli iqtisadi quruculuq proseslərinə davamlı töhfələr verir



**Cavadxan QASIMOV**
*Naxçıvan Dövlət Universitetinin dosenti, iqtisad üzrə fəlsəfə doktoru*

Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar ölkənin bütün iqtisadi rayonlarında olduğu kimi, muxtar respublikada da yeni inkişaf perspektivlərinin əsasını qoyur. "Yaşıl iqtisadiyyat"a keçid, mövcud resurslardan daha səmərəli istifadə imkanlarının müəyyənləşdirilməsi və iqtisadi fəaliyyətin müasir tələblərə uyğun təşkili daha mütərəqqi inkişaf modelinin formalaşmasına şərait yaradır. Regionların sosial-iqtisadi inkişafına dair dövlət siyasətinin Milli Prioritetlər əsasında reallaşdırılması muxtar respublikada əlverişli investisiya mühitinin formalaşmasına da mühüm töhfə verir. Bu baxımdan, tikinti-quraşdırma işlərinin genişlənməsi və investisiya qoyuluşunun artması xüsusi əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, cari ilin ilk 9 ayında əsas kapitala investisiya qoyuluşunda 37,4 faiz, tikinti-quraşdırma işlərində isə 41,9 faiz artım qeydə alınıb. Bu göstəricilər həyata keçirilən iqtisadi islahatların nəticələrini və inkişaf prosesinin dinamikasını aydın şəkildə əks etdirir.

Yeni infrastruktur obyektlərinin yaradılması, ucqar dağ kəndlərində istehsal və xidmət sahələrinin fəaliyyətinin genişləndirilməsi, iqtisadiyyatın müxtəlif sektorlarının potensialından səmərəli istifadə olunması makroiqtisadi inkişafın əsas istiqamətlərindəndir. Bu məqsədlə 2026-cı ilin yanvar-sentyabr aylarında Naxçıvan Muxtar Respublikasında bütün maliyyə mənbələri hesabına əsas kapitala 238 milyon 196 min 500 manat investisiya yönəldilib. Bu, 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 37,4 faiz çoxdur. İnvestisiya qoyuluşunun 198 milyon 484 min 300 manatı və ya 83,3 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 41,9 faiz artım deməkdir. Bu vəsaitlərin əhəmiyyətli hissəsinin tikinti-quraşdırma işlərinə yönəldilməsi yeni istehsal və xidmət infrastrukturunun yaradılması, mövcud obyektlərin yenilənməsi, eləcə də iqtisadi fəaliyyətin genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Ölkəmizdə həyata keçirilən iqtisadi siyasət dövlət və özəl sektor arasında tərəfdaşlığın inkişafına, sahibkarlıq təşəbbüslərinin dəstəklənməsinə və investisiya fəallığının artırılmasına da stimul verir. Muxtar respublikanın cari ilin ilk 9 ayına dair statistik göstəriciləri bu istiqamətdə müsbət dinamikanın formalaşdığını təsdiqləyir. Belə ki, əsas kapitala yönəldilən investisiyanın 100 milyon 758 min 100 manatı və ya 42,3 faizi dövlət sektorunun, 137 milyon 438 min 400 manatı və ya 57,7 faizi isə qeyri-dövlət sektorunun payına düşüb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə investisiya qoyuluşu dövlət sektorunda 30,9 faiz, qeyri-dövlət sektorunda isə 42,7 faiz artıb. Bu bölgü özəl sektorun investisiya fəallığının yüksəldiyini, iqtisadi inkişafda sahibkarlıq subyektlərinin rolunun getdikcə genişləndiyini göstərir.

Cəlb olunan investisiyanın 116 milyon 367 min 700 manatı və ya 48,9 faizi məhsul istehsalı sahələrinə, 27 milyon 152 min 700 manatı və ya 11,4 faizi xidmət sahələrinə, 94 milyon 676 min 100 manatı və ya 39,7 faizi isə yaşayış evlərinin tikintisinə sərf olunub. Göründüyü kimi, investisiyalar həm iqtisadiyyatın real sektorunun inkişafına, həm də əhalinin mənzil və yaşayış şəraitinin yaxşılaşdırılmasına yönəldilir.

İqtisadi inkişafın şaxələndirilməsi, regionlarda istehsal və xidmət infrastrukturlarının gücləndirilməsi, diversifikasiya yönümlü mexanizmlərin tətbiqi, sosial imkanların genişləndirilməsi və yeni islahatlar əsasında daha intensiv iqtisadi artımın təmin edilməsi dövlətin iqtisadi siyasətinin mühüm istiqamətlərindəndir. Bu baxımdan, muxtar respublikada həyata keçirilən iqtisadi təşəbbüslər ölkəmizin yeni iqtisadi reallıqlarına və milli inkişaf prioritetlərinə uyğun şəkildə reallaşdırılır. Xüsusilə yeni yaşayış binalarının inşası, istehsal müəssisələrinin yaradılması, elektrik enerjisi təsərrüfatının yenidən qurulması əsas kapitala investisiya qoyuluşunun artmasına təsir göstərən başlıca amillərdəndir. Bununla yanaşı, kənd təsərrüfatında su təminatının yaxşılaşdırılması və nəqliyyat infrastrukturuna yönəldilən vəsaitlər də investisiya fəallığının yüksəlməsində mühüm rol oynayır.

Məşğulluq səviyyəsinin artırılması, yeni iş yerlərinin yaradılması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin mühüm istiqamətlərini təşkil edir.

Cari ilin ilk 9 ayında muxtar respublikada 1004 yeni iş yeri yaradılıb ki, bu da 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 371 iş yeri və ya 59 faiz çoxdur. Yeni iş yerlərinin böyük hissəsinin qeyri-dövlət sektorunda formalaşması xüsusilə diqqətəlayiqdir. Belə ki, yaradılan iş yerlərinin 697-si və ya 69 faizi qeyri-dövlət, 307-si və ya 31 faizi dövlət sektorunun payına düşüb. Yeni iş yerlərinin 852-si fəaliyyətə başlayan 117 müəssisə və təşkilatda, 152-si isə mövcud 31 müəssisədə yaradılıb. Bu göstəricilər iqtisadi fəallığın artdığını, sahibkarlıq subyektlərinin məşğulluğun təmin olunmasında rolunun genişləndiyini və həyata keçirilən islahatların əmək bazarına müsbət təsir göstərdiyini təsdiqləyir.


Qeyd olunan göstəricilər iqtisadi idarəetmənin təkmilləşdirilməsi, regional və milli iqtisadi inkişaf arasında əlaqələndirmənin gücləndirilməsi baxımından da əhəmiyyətlidir. Cari ilin yanvar-sentyabr aylarında muxtar respublikanın qeyri-dövlət sektorunda yaradılan yeni iş yerlərinin sayının dövlət sektorundakı göstəricini 2 dəfədən çox üstələməsi sahibkarlığın məşğulluğun təmin olunmasında aparıcı rolunu nümayiş etdirir. Sənaye parkları və məhəllələrinin inkişafı da bu potensialın daha da genişlənməsinə imkan verəcək. Belə istehsal məkanları bir tərəfdən müasir infrastrukturun yaradılmasına, digər tərəfdən isə kiçik və orta sahibkarlığın inkişafı üçün əlverişli iqtisadi mühitin formalaşmasına xidmət edir.

Muxtar respublikada iqtisadi artımın müxtəlif sahələri əhatə etməsi yeni iş yerlərinin yaradılmasına da müsbət təsir göstərir. Bu prosesdə yeni istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması, tikinti və infrastruktur layihələrinin həyata keçirilməsi, eləcə də iqtisadiyyatın müxtəlif sahələrinə yönəldilən investisiyaların həcminin artması mühüm rol oynayıb. Eyni zamanda sosial və infrastruktur layihələri çərçivəsində Naxçıvan Regional Dost Mərkəzində 43, "Naxçıvan Avtomobil Yollarının Yaşıllaşdırılması" Məhdud Məsuliyyətli Cəmiyyətində isə 223 yeni iş yerinin yaradılması ümumi məşğulluq göstəricisinə əhəmiyyətli töhfə verib.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 aprel tarixli "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamına əsasən həyata keçirilən özünüməşğulluq proqramı da əhalinin iqtisadi fəallığının artırılmasında mühüm rol oynayır. Proqram çərçivəsində 2026-cı ilin ötən dövründə muxtar respublikada öz kiçik biznesini qurmaq istəyən 114 işsiz şəxsə aktivlər təqdim edilib. Onlardan 94 nəfəri kənd təsərrüfatı, o cümlədən 50 nəfəri qoyunçuluq, 44 nəfəri arıçılıq, 20 nəfəri isə istehsal və xidmət sahələri üzrə fəaliyyət göstərmək üçün müvafiq əmlaklarla təmin olunub. Proqramın əsas məqsədi aztəminatlı ailələrin sosial rifahını yüksəltməklə yanaşı, onların iqtisadi müstəqilliyinə və davamlı məşğulluğuna dəstək verməkdir. Cari ilin sonunadək proqram çərçivəsində əlavə məşğulluq imkanlarının yaradılması da nəzərdə tutulur.

Beləliklə, Naxçıvan Muxtar Respublikasında əsas kapitala investisiya qoyuluşunun, tikinti-quraşdırma işlərinin və yeni iş yerlərinin sayının artması regionun iqtisadi potensialının tədricən daha geniş miqyasda reallaşdırıldığını göstərir. Dövlət investisiyaları ilə yanaşı, özəl sektorun fəallığının yüksəlməsi, sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi və özünüməşğulluq imkanlarının genişləndirilməsi bu inkişafın dayanıqlılığını təmin edən mühüm amillərdir. Mövcud resurslardan səmərəli istifadə, istehsal və xidmət sahələrinin şaxələndirilməsi, infrastrukturun müasirləşdirilməsi qarşıdakı dövrdə də muxtar respublikanın sosial-iqtisadi inkişafına yeni töhfələr verəcək. Bütün bunlar Naxçıvanın ölkəmizin milli iqtisadi quruculuq prosesində iştirakını və Milli Prioritetlərin reallaşdırılmasına verdiyi töhfəni daha da gücləndirir.

# Böyük Britaniyanın səfiri: Naxçıvana səfərimin səbəbi bu torpağın Ümummilli Lider Heydər Əliyevin Vətəni olmasıdır



"Artıq altı aydır ki, Böyük Britaniyanın Azərbaycandakı səfiriyəm. İlk rəsmi səfərim Qarabağa, ikinci rəsmi səfərim isə Naxçıvana oldu. İkinci səfərim üçün Naxçıvanı seçməyimin səbəbi, əlbəttə ki, bu torpağın Ümummilli Lider Heydər Əliyevin Vətəni olmasıdır. Burada olduğum müddətdə bir sıra yüksəksəviyyəli görüşlər keçirdim. Dəmir yolu stansiyasına baş çəkərək dəmir yolu qurumlarının nümayəndələri ilə də söhbət etdim. Həmçinin saraylar və muzeylər də daxil olmaqla bir sıra mədəniyyət məkanlarını ziyarət etdim və Naxçıvan haqqında çox şey öyrəndim".

Bu sözləri Böyük Britaniyanın Azərbaycandakı səfiri Duncan Norman Naxçıvana səfəri çərçivəsində jurnalistlərə müsahibəsində deyib.

Səfir qeyd edib ki, Böyük Britaniya ilə Azərbaycan, xüsusilə də Naxçıvan arasında əməkdaşlıq üçün dörd əsas istiqamət var. Birincisi, infrastruktur, xüsusilə dəmir yollarıdır. Bu gün Böyük Britaniyanın layihələrin idarə olunması, dəmir yollarının modernləşdirilməsi və siqnalizasiya sistemləri kimi sahələrdə təcrübəsindən istifadə imkanlarını müzakirə etdik. Böyük Britaniya Naxçıvanın "yaşıl enerji" sahəsində inkişafına da dəstək verməkdə maraqlıdır. Buraya elektrik enerjisi interkonnektorları və günəş enerjisi daxildir.

"Bildiyimə görə, Naxçıvanda ildə 250 gün günəşli olur. Bu gün həmin günlərdən biri olmasa da, ümumilikdə, Naxçıvan günəş enerjisi üçün çox əlverişli məkandır. Beləliklə, enerji ikinci əməkdaşlıq istiqamətidir. Turizm sahəsinə də diqqət yetiririk. Son iki gün ərzində gördüyüm möhtəşəm muzeylər və mədəniyyət məkanları məndə belə bir əminlik yaradıb ki, Naxçıvan mühüm turizm mərkəzinə çevrilə bilər. Bundan əlavə, kənd təsərrüfatı sahəsində də necə dəstək göstərə biləcəyimizi araşdırırıq.

Böyük Britaniya və Azərbaycanın Naxçıvanda birlikdə işləməsi üçün çoxsaylı imkanlar mövcuddur. Bu əməkdaşlıq artıq Britaniya şirkətlərinin iştirakı ilə başlayıb. Burada fəaliyyət göstərən Chapman Taylor şirkəti şəhərin 20 illik Baş Planını hazırlayacaq və onsuz da gözəl olan Naxçıvanı gələcəyə uyğun şəkildə inkişaf etdirməyə kömək edəcək. Bu, iki ölkənin əməkdaşlığının yaxşı nümunəsidir. İnanıram ki, qarşıdakı aylar və illər ərzində belə nümunələrin sayı daha da artacaq", – deyə o vurğulayıb.

Səfirin sözlərinə görə, Böyük Britaniya ilə Azərbaycan arasındakı münasibətlər bp şirkətinin bu əlaqələrin təməl daşı olduğu dövrdən başlayıb: "Bp bu gün də münasibətlərimizdə mühüm rol oynayır. Lakin əməkdaşlığımız artıq "yaşıl enerji", digər kommersiya əlaqələri və investisiyalar kimi sahələri də əhatə edir. Müdafiə və təhlükəsizlik məsələlərində də birlikdə çalışırıq. Enerji sahəsi hələ də vacibdir, amma münasibətlərimizin digər istiqamətləri də genişlənib. Azərbaycanın müstəqil və özünəinamlı dövlətə çevrildiyini, regionda müstəqil siyasət yürütdüyünü görmək çox sevindiricidir. Azərbaycan getdikcə daha böyük uğurlar qazanır və onun yaxın tərəfdaşı olmaq bizim üçün çox önəmlidir. Biz Azərbaycanla çox yaxın tərəfdaşıq və qarşıdakı illərdə əlaqələrimizi daha da möhkəmləndirməyi səbirsizliklə gözləyirik".

O qeyd edib ki, Böyük Britaniyanın "Chevening" adlı təqaüd proqramı var. Bu proqram magistratura təhsili almaq istəyən tələbələrə Böyük Britaniyada təhsil imkanı yaradır və müraciət etmək mümkündür. Eyni zamanda Azərbaycanın öz Dövlət Proqramı da mövcuddur. Bu il xaricdə təhsil almaq üçün seçilən tələbələrin 61 faizi Böyük Britaniyanı seçib. Söhbət Azərbaycan hökumətinin maliyyələşdirdiyi proqramdan gedir. "Chevening" proqramına gəlincə, onun imkanlarının genişləndirilməsi nəzərdən keçirilir və gələn il bu proqram çərçivəsində tam maliyyələşdirilən tələbələrin sayı bu ilkindən bir qədər çox olacaq. Bu, Azərbaycanın müstəqillik əldə etməsindən bəri həyata keçirilən çox mühüm proqramdır.

Səfir bildirib ki, sülh prosesi olduqca vacibdir. Bu təkcə Azərbaycan və Ermənistan üçün deyil, bütün region və daha geniş mənada dünya üçün əhəmiyyətlidir. Bütün sülh sazişlərində olduğu kimi, bu proses də ikitərəfli qaydada həyata keçirilməlidir. Azərbaycanın və Ermənistanın bunu, əsasən, öz aralarında, dostlarının dəstəyi ilə həyata keçirməsi düzgün yanaşmadır. Böyük Britaniya bacardığı qədər kömək etməyə və bu prosesi dəstəkləməyə çox maraqlıdır.

"Mən Strateji Tərəfdaşlıq Sazişinin imzalanmasını və daha sonra bu tərəfdaşlığın real nəticələr verməsini görmək istəyirəm.

Daha sıx əməkdaşlıq etməyimizi, daha böyük nailiyyətlər əldə etməyimizi, investisiya, ticarət və kommersiya əlaqələrimizi gücləndirməyimizi arzulayıram. Həmçinin bütün dünyada hamımıza təsir edən məsələlərdə daha yaxından əməkdaşlıq etmək istəyirik. Son 35 ildə olduğu kimi, bundan sonra da yaxın tərəfdaş olmağımızı, qarşıdakı 35 il üçün isə daha sıx tərəfdaşlığın əsasını qoymağımızı istəyirəm", – deyə Duncan Norman əlavə edib.

# Fərid Bağırzadə: Naxçıvan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin fəaliyyətə başlaması nəzərdə tutulur



"Bu gün Azərbaycan xalqının tarixində qürur və şərəf səhifəsinə çevrilmiş şanlı Zəfərimizə həsr olunan xüsusi tədbirdə – əlilliyi olan istedadlı uşaqların iştirakı ilə təşkil edilmiş inklüziv musiqili konsert proqramında iştirak etdik. Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli liderliyi, şanlı Ordumuzun qəhrəmanlığı, şəhidlərimizin canı və müharibə iştirakçılarının fədakarlığı sayəsində qazanılan tarixi Zəfərimiz Azərbaycan xalqının gücünün, birliyinin və iradəsinin təntənəsidir".

Bu sözləri jurnalistlərə müsahibəsində Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Fərid Bağırzadə deyib.

Onun sözlərinə görə, bu gün Zəfər tariximiz bizə bir daha göstərdi ki, Azərbaycan xalqının ən böyük gücü onun birliyi və həmrəyliyidir. Məhz həmin birlik və həmrəylik dövlətimizin həyata keçirdiyi sosial siyasətdə, xüsusilə əlilliyi olan şəxslərə və həssas əhali qruplarına göstərilən diqqətdə öz əksini tapır.

Nazir qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin mühüm istiqamətlərindən biri də əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyası və onların sosial müdafiəsinin gücləndirilməsidir: "Bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilir. Xüsusilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətini qeyd etmək istərdim. Onun rəhbərliyi ilə həyata keçirilən sosial layihələr, xüsusən əlilliyi olan uşaqların təhsilinə, sağlamlığına və reabilitasiyasına töhfə verən təşəbbüslər ölkəmizdə inklüziv cəmiyyətin formalaşmasına mühüm dəstək göstərir".

"Bu gün burada Naxçıvan Regional İnformasiya Mərkəzinin benefisiarlarının ifalarını dinlədik. Bildirmək istəyirəm ki, növbəti mərhələdə məhz həmin mərkəzin bazasında Naxçıvan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin fəaliyyətə başlaması nəzərdə tutulur. Bu istiqamətdə artıq işlər davam etdirilir. Düşünürük ki, bu cür tədbirlər əlilliyi olan şəxslərin özünəinamının artırılmasına, yaradıcılıq potensialının inkişafına mühüm dəstək verəcək" , – deyə Fərid Bağırzadə əlavə edib.

# Naxçıvan Regional Dost Mərkəzinə 8 minə yaxın müraciət daxil olub



"Məlum olduğu kimi, 2026-cı il avqustun 11-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə ölkə üzrə 8-ci DOST Mərkəzi olan Naxçıvan Regional DOST Mərkəzi istifadəyə verilib. Mərkəzdə 15 istiqamət üzrə 164 xidmət göstərilir. Vətəndaş məmnunluğu göstəricisi 99 faizdən yüksəkdir. Fəaliyyətə başladığı vaxtdan indiyədək mərkəzə vətəndaşlardan 8 minə yaxın müraciət daxil olub. Müraciətlərin əksəriyyəti sosial müdafiə, pensiya və əmək məşğulluğu istiqamətləri ilə bağlıdır".

Bu sözləri jurnalistlərə müsahibəsində Naxçıvan Regional DOST Mərkəzinin direktor müavini Şamil Əliyev deyib.

O qeyd edib ki, vətəndaşlar hər hansı nazirliyin digər qurumlarına getmədən vahid məkanda, "Bir pəncərə" prinsipi əsasında müxtəlif xidmətlərdən yararlana bilirlər. Mərkəzdə əsas fəaliyyət istiqamətləri ilə yanaşı, vətəndaşlara funksional və yardımçı xidmətlər də təqdim olunur.

"Məlumat üçün bildirim ki, 2026-2027-ci illərdə Naxçıvan Muxtar Respublikasının bütün rayon mərkəzlərində xidmətlərin daha əlçatan olması məqsədilə DOST qəbul şöbələrinin yaradılması planlaşdırılır", – deyə Şamil Əliyev əlavə edib.

# Fərqanə Qasımova: Benefisiarların ifalarında musiqiyə olan sevgilərini hiss etdim



Naxçıvanda 8 Noyabr – Zəfər Günü münasibətilə keçirilən inklüziv konsert proqramında Əməkdar artist Fərqanə Qasımova da iştirak edib. Naxçıvan Regional İnformasiya Mərkəzinin benefisiarlarının musiqi ifaları ilə yaddaqalan tədbirdə sənətçi onların səhnə çıxışlarını izləyib, təəssüratlarını bölüşüb.

Fərqanə Qasımova benefisiarların ifaçılıq bacarıqları, musiqiyə olan sevgiləri və konsert proqramı ilə bağlı təəssüratlarını "Şərq qapısı" ilə bölüşüb: "Naxçıvana dəfələrlə gəlmişəm. Hər dəfə gələndə elə bilirəm ki, ilk dəfə gəlirəm. Çünki hər gəlişimdə Naxçıvana yenidən aşiq oluram. Bu dəfə də burada olmaq, belə gözəl və duyğulu bir tədbirdə iştirak etmək mənim üçün çox xoşdur. Dünəndən benefisiarlarla birlikdə məşqlərdə iştirak edirəm. Onların necə böyük həvəslə hazırlaşdıqlarını, hər bir mahnıya necə sevgi və məsuliyyətlə yanaşdıqlarını görürəm. Məşqlər zamanı onların ifalarına, səhnəyə çıxmaq istəyinə, musiqiyə bağlılığına şahid oldum. Hər birinin ifasında çəkdiyi zəhməti, göstərdiyi əzmi hiss etmək mümkündür. Düşünürəm ki, konsertimiz çox gözəl keçdi. Benefisiarların hər biri öz çıxışını böyük həvəslə və peşəkar səviyyədə təqdim etdi. Onların səhnədə özlərini ifadə etmələri, tamaşaçılarla duyğularını bölüşmələri, alqışlarla qarşılanmaları olduqca sevindiricidir. Ən əsası isə onların gözlərindəki sevinc və xoşbəxtliyi görməkdir. Bu gün burada hər bir benefisiarın ifası, səhnədəki varlığı və musiqiyə olan sevgisi bizə çox gözəl duyğular yaşatdı", – deyə Əməkdar artist bildirib.

Əməkdar artist benefisiarların hər birini təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Sənətçi onların istedadlarının inkişafı, yaradıcılıq imkanlarının genişlənməsi və yeni səhnələrdə çıxış etmələrinin vacibliyini qeyd edib.

***İtmişdir***

Naxçıvan şəhəri, Nəcməddin Naxçıvani küçəsi, döngə 3, ev 2A ünvanında yerləşən Məmmədova Nərgiz Alış qızının adına olan 9734 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Anaqut kəndində yaşamış Yusifov Məmməd Hilal oğlunun adına olan JN-123A və C nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələr" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Dərəkənd sakini Əliyev Cəlil Məcid oğluna məxsus JN-176A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kərimbəyli kəndində yaşamış Əliyev İsfəndiyar Məmməd oğluna məxsus JN-407 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraçuq kəndi, 4-cü küçə, ev 1 ünvanında yerləşən Məmmədov Əli Sultan oğlunun adına olan 15335 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Dizə kəndində yaşamış İbrahimov Əsədulla Mahmud oğluna məxsus JN-231A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayon sakini Məmmədov İmaməli Xəlil oğluna məxsus SQ-0030945 nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

**Baş redaktor:**
**RƏMZİ TAHİRLİ**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
**E-mail:** *info@serqqapisi.gov.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Vöen: 0200065441*

**Çapa imzalanmışdır 00:00**
**Tiraj: 450. Sifariş № 251**

***Nömrəyə məsul:*** **Ceyhun Məmmədov, Səmayə Rəsulova**
***Dizayner:*** **Həbibə Allahverdiyeva**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*